www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 iyul 2016-cı il Çərşənbə axşamı № 155 (6476) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda 24 yaşlı oğlan günvurmadan öldü

yazısı səh.2-də

**Gündəm**

### Ərdoğan Pentaqondan şübhələnib-"amerikalılar" ordudan təmizlənir



Vaşinqton və Ankara arasında iplər sürətlə qopur

yazısı səh.10-da

### ANS terror təbliğatında suçlandı, yayımı dayandırıldı

yazısı səh.2-də

### Rusiya və İran prezidentlərinin Bakı səfəri - əsas gözlənti

yazısı səh.4-də

### Bank sistemindəki problemlər çözülmək əvəzinə dərinləşib...

yazısı səh.6-da

### ABŞ Fətullah Güləni Türkiyəyə verə bilər

yazısı səh.7-də

### Bakıda qadın kişini bıçaqladı

yazısı səh.2-də

### MTN ləğv edildi, Çovdarov tutuldu, amma Elmarın qətli açılmadı...

yazısı səh.3-də

### FES dolları bahalaşdıracaq; manatın taleyi necə olacaq?

yazısı səh.6-da

### Sovetdən qalan ənənə - hoteldə qalmaq üçün mütləq evlənməlisiniz...

yazısı səh.13-də

### Ermənistandakı silahlı qarşıdurma - Azərbaycan üçün fürsət?!

yazısı səh.11-də

### Türkiyə mediası son olaylardan üzüağ çıxdımı...

yazısı səh.7-də

### Balakəndə polis xüsusi narkotik əməliyyatı keçirdi

yazısı səh.14-də

## Status-kvo əvvəlki qorxulu fazaya qayıdır

# QİYAM, ÇEVRİLİŞ CƏHDLƏRİ DALĞASI VƏ QARABAĞ - YENİ TƏHLÜKƏ

Türkiyə və işğalçı Ermənistandakı son dramatik hadisələr konfliktin həllinə yönəlik səyləri sıfırlaya, müharibə riskini artıra bilər; Putinin adamından Ermənistanda siyasi terror xəbərdarlığı gəldi...




yazısı səh.9-da

## Referenduma gedirik - prezidentlik 7 il olur, vitse-prezidentlik institutu yaradılır; baş nazir postu ləğv olunur

Dövlət başçısı Milli Məclisi buraxmaq səlahiyyətinə də malik olacaq; 35 yaş senzi aradan qaldırılır; prezident mühüm dəyişiklikləri ehtiva edən Referendum Aktı layihəsinin rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında sərəncam imzaladı

yazısı səh.5-də



Cavanşir Paşazadə

### Paşazadələrin həbsdəki şərikı Roma papasından kömək istədi

yazısı səh.4-də



Fərəc Kərimli

### Amnistiyaya düşən Müsavat başqanının müavini hələ həbsxanadadır

yazısı səh.3-də



*Mirmahmud Miralioğlu:*

### "Türkiyə bütün hallarda proseslərdən güclü çıxacaq"

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016



## İlham Əliyev Ərdoğana zəng vurdu

### "Türkiyəni bundan sonra da heç bir qüvvə inkişaf və demokratiya yolundan döndərə bilməz"

**İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. ANS PRESS-in məlumatına görə, bu barədə Prezidentin mətbuat xidməti məlumat yayıb.**

Dövlət başçısı Türkiyədə hərbi çevriliş cəhdini qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan xalqı və dövləti həmişə olduğu kimi Türkiyə xalqı və dövlətinin yanındadır. Prezident İlham Əliyev çevriliş cəhdinin qarşısının alınması nəticəsində həlak olanların ailə üzvlərinə və Türkiyə Prezidentinə başsağlığı vermiş, yaralılara şəfa arzulayıb.

Azərbaycan Prezidenti əminliyini ifadə edib ki, Türkiyəni bundan sonra da heç bir qüvvə inkişaf və demokratiya yolundan döndərə bilməz.

Türkiyə Prezidenti Prezident İlham Əliyevin və Azərbaycan xalqının göstərdiyi qardaşlıq mövqeyini yüksək qiymətləndirərək bildirib ki, Türkiyə rəhbərliyi ölkədə vəziyyəti normallaşdırmaq üçün bütün lazımi tədbirləri görməkdədir.

## Prezident Administrasiyasının şöbələrindən biri ləğv olunub

**Prezidenti Administrasiyasının İqtisadi siyasət məsələləri şöbəsi ləğv olunub. "Report" xəbər verir ki, struktur islahatlarından sonra İqtisadi siyasət məsələləri şöbəsi Prezidenti Administrasiyasının şöbələri sırasından çıxarılıb.**

Onun yerində Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri xidmətinin İqtisadi siyasət məsələləri şöbəsi yaradılıb.

Bu şöbəyə Mail Rəhimov müdir təyin olunub.

Qeyd edək ki, M.Rəhimov əvvəllər Prezident Administrasiyasının İqtisadi siyasət məsələləri şöbəsinin müdiri olub.

## Bakıda qadın kişini bıçaqlayıb xəstəxanalıq etdi

**Paytaxtda növbəti bıçaqlanma hadisəsi baş verib. "Report"un xəbərinə görə, Xətai rayonunun Gəncə prospektində, ev 17-də yaşayan 1979-cu il təvəllüdlü Azər Bilalov yaşadığı mənzildən qarın nahiyəsinin kəsilmiş-deşilmiş yaraları ilə 3 saylı Şəhər Klinik Xəstəxanasına aparılıb.**

Vəziyyəti ağır olduğundan, A.Bilalovun dindirilməsi mümkün olmayıb.

Polis əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində A.Bilalova bıçaq xəsarətləri yetirən Bakı şəhər sakini Yeganə Kərimova tutulub.

Araşdırmalar davam etdirilir.

## 24 yaşlı oğlan günvurmadan öldü

**Bakıda günvurma nəticəsində ölüm hadisəsi baş verib. Dünən Salyan yolu 32 ünvanında "Şıx" qəsəbəsi ərazisində yerləşən daş karxanasında fəhlə işləyən, 1992-ci ildə Lerik rayonunda anadan olmuş Şiriyev Sərxan Mirzəxan oğlunun vəziyyəti günvurma nəticəsində pisləşib. Saat 22 radələrində 24 yaşlı S.Şiriyev vəfat edib.**

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# ANS-i terror təbliğatında suçlayıb bağladılar

**ANS Televizyasının və radiosunun yayımı dayandırılıb. Musavat.com-un əməkdaşı bunun səbəbini öyrənməyə çalışıb. Ancaq ANS telekanalının rəhbərliyi ilə əlaqə yaratmaq mümkün olmayıb.**



Bununla belə, telekanalda olan mənbənin irəli sürdüyü ehtimala görə, bu vəziyyət ANS telekanalında "Hizmet" ("Xidmət") hərəkatının lideri, hazırda ABŞ-da yaşayan Fətullah Gülənlə geniş müsahibənin efirə verilməsinə hazırlıq ilə bağlı yaranmış ola bilər. Məlum olub ki, bu telekanalın ABŞ üzrə müxbiri Qənirə Ataşova Pensilvaniyada olub və hazırda Türkiyə iqtidarının 1 saylı hədəfi olan F. Gülənlə müsahibə alıb.

Telekanalın yayımının dayandırılmasından dərhal sonra ANSPRESS saytına girişə də məhdudiyyət qoyulub.

MTRŞ ANS-in yayımının dayandırılması ilə bağlı məlumat yayıb.

Şuradan verilən məlumata görə, prezidenti İlham Əliyev son günlər Türkiyədə baş vermiş hadisələri birmənalı şəkildə dövlət çevrilişi cəhdi, Türkiyə dövlətçiliyinə, türk xalqına, onun iradəsi və seçiminə qarşı törədilən dəhşətli cinayət kimi qiymətləndirib: "Prezident İlham Əliyev Azərbaycanın Türkiyə dövlətinin və xalqının yanında olduğunu, Türkiyə vətəndaşlarının demokratik yolla seçdiyi hakimiyyəti hərtərəfli dəstəklədiyini bəyan edib və bununla bağlı ölkənin müvafiq orqanlarına lazımi tapşırıqlar verib.

Azərbaycan ictimaiyyəti, vətəndaş cəmiyyəti institutları Türkiyə xalqı ilə həmrəylik nümayiş etdirərək hakimiyyət çevrilişi cəhdini pisləyib, bunun yolverilməz olduğunu, Türkiyə dövlətçiliyinin əsaslarının sarsıdılmasına yönəldiyini bildiriblər. Təəssüf ki, ANS Azərbaycan və Türkiyə xalqları arasında qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin ruhuna zidd mövqe tutub, Türkiyə dövlətinin və hakimiyyətinin əleyhinə təbliğat aparıb, bu ölkədə terrorçu təşkilat kimi tanınan, çoxsaylı insan ölümünə səbəb olmuş qanlı hadisələri təşkil edən Fətullah Gülənə və onun tərəfdarlarına dəstək verib.

Hadisə baş verən andan ANS telekanalı ayrı-ayrı reportajlarında, müsahibələrdə Azərbaycan ictimaiyyətinə Türkiyədə baş verən hadisələrin "hakimiyyət tərəfindən təşkil edilən şou" olduğunu təlqin etməyə, Türkiyə hakimiyyətinin həyata keçirdiyi tədbirləri gözdən salmağa çalışıb. ANS-in ABŞ-dakı əməkdaşı Türkiyədə hakimiyyət çevrilişinə rəhbərlik etməkdə şübhəli bilinən Fətulla Güləndən müsahibə alıb, bu müsahibə yerli və xarici KİV-lər vasitəsilə anons edilib.

Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, ANS telekanalı terrorizmin təbliği istiqamətində fəaliyyətini davam etdirib, Türkiyə hakimiyyətinin vəziyyətin sabitləşdirilməsi istiqamətində atdığı addımları hədəfə götürüb, yüzlərlə insanın qətlə yetirilməsinə səbəb olan qəddar cinayətə bəraət qazandırmağa çalışıb və nəticə etibarilə qardaş ölkədə vətəndaş qarşıdurmasının dərinləşməsinə yönələn addımlar atıb.

Türkiyənin hakimiyyət orqanları, bu ölkənin səfirliyi Azərbaycanın dövlət qurumlarına müraciət edərək məsələ ilə bağlı dərin narahatlıqlarını bildirib və müvafiq tədbir görülməsini xahiş ediblər.

"Televiziya və radio yayımı haqqında" Qanununun 11-ci maddəsinə əsasən, Azərbaycan dövləti televiziya və radio vasitəsilə terrorizmin, zorakılığın, qəddarlığın, milli, irqi və dini ayrı-seçkiliyin təbliğinə yol verilməməsinə nəzarət edir. Dövlət quruluşunu zorakılıqla devirməyə, dövlətin bütövlüyünə və ölkənin təhlükəsizliyinə qəsd etməyə, milli, irqi və dini ədavəti qızışdırmağa, kütləvi iğtişaşlar törətməyə və terrorizmə açıq çağırışlar teleradio yayımçısı tərəfindən müdafiə olunduqda və ya bu çağırışları səsləndirməyə bilərəkdən şərait yaradıldıqda teleradio yayımçısının fəaliyyəti müvəqqəti dayandırıla bilər.

MTRŞ Azərbaycan Respublikası Prokurorluğunun müraciətini nəzərə alaraq, Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə ANS telekanalının yayımının müvəqqəti dayandırılması barədə qərar qəbul edib.

ANS telekanalının qanunazidd fəaliyyəti ilə bağlı məhkəməyə müvafiq müraciət olunacaq və son qərar məhkəmə tərəfindən veriləcək".

## Şəmkirdə toyda insident: 4 nəfər bıçaqlandı

**Şəmkirdə toyda yaranan münaqişə nəticəsində 4 nəfər bıçaqlanıb. Rayonun Polis İdarəsindən ANS PRESS-ə verilən məlumata görə, hadisə rayonun Bayramlı kəndində qeydə alınıb. Toy məclisi zamanı kənd sakini, 1988-ci il təvəllüdlü Pərvin Kərimov aralarında yaranan münaqişə zəminində həmkəndliləri, 1983-cü il təvəllüdlü Mahmud Mahmudova, Rza Rzalıya, 1984-cü il təvəllüdü Ceyhun Cəfərova və qardaşı 1976-cı il təvəllüdlü Nicata bıçaqla xəsarət yetirib.**

Yaralılar dərhal xəstəxanaya çatdırılıblar və vəziyyətləri orta ağırdır.

Şəmkir Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində P.Kərimov tutulub.

Hadisə zamanı Pərvin Kərimovun sərxoş olduğu bildirilir.

## "WikiLeaks" Türkiyədəki hərbi çevriliş cəhdilə bağlı gizli sənədlər açıqlayacaq

**Məxfi sənədləri və yazışmaları yaymaqla məşhurlaşan "WikiLeaks" beynəlxalq qeyri-kommersiya təşkilatı Türkiyədəki hərbi çevriliş hadisəsi ilə bağlı çoxlu sayda sənəd açıqlayacağını elan edib.**

APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, "WikiLeaks" bunu özünün rəsmi "Twitter ttp://apa.az/tag/Twitter" səhifəsində bildirib.

"Türkiyə çevrilişi" etiketi ilə verilən açıqlamada "Türkiyənin siyasi güc iyerarxiyası" haqqında 100 mindən çox sənəd yayımlanacağı bildirilib.

## Baytarlıq xidmətindən yumurta açıqlaması

**Ölkəyə idxal olunan yumurtalar müayinədən keçirilib. Bu barədə virtualaz.org saytına Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mətbuat katibi Yolçu Xanvəli deyib.**

Onun sözlərinə görə, yumurtaların salmonella virus xəstəliyinə yoluxması və belə satılması ilə bağlı məlumatlar yoxlanılıb. "Respublikaya idxal olunan digər heyvandarlıq məhsulları ilə yanaşı, ərzaq yumurtalarından da nümunələr götürülərək Respublika Baytarlıq Laboratoriyasında bakterioloji, biokimyəvi, ağır metalların qalıq miqdarına, antibiotiklər və digər parametrlərə görə müvafiq müayinələrdən keçirilib. Aparılan müayinələrin nəticəsinə görə, idxal olunan ərzaq yumurtalarında hər hansı xəstəliyin törədicisi aşkar edilməyib",-Y.Xanvəli deyib.

Dövlət Baytarlıq Nəzarəti Xidməti bildirir ki, idxal edilən yumurtalarda heç bir xəstəlik mövcud deyil. İdxal edilən heyvanın, heyvan mənşəli məhsulların, eləcə də yumurtanın satışına müvafiq laboratoriya müayinələrindən keçdikdən, yeyinti üçün yararlı olması müəyyən edildikdən sonra icazə verilir. Ölkəyə idxal edilən bütün heyvan mənşəli məhsullara nəzarət olunur.

❑ Virtualaz.org

## Qazaxıstanda da ara qarışdı

**DİN və MTN-ə silahlı hücum oldu, ölənlər var Dünən səhər Qazaxıstanın Almatı şəhərində atışma baş verib.**

APA-nin Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, naməlum şəxslər Almatı Daxili İşlər Şöbəsini atəşə tutublar. 2 polis öldürülüb.

Şahidlər isə biri mülki şəxs olmaqla, 3 nəfərin öldüyünü deyiblər. Almatıda anti-terror əməliyyatı elan olunub, şəhər sakinlərinə küçəyə çıxmamaq tövsiyə edilib.

Qazaxıstan Milli Təhlükəsizlik Nazirliyindən bildiriblər ki, naməlum şəxslər Almatıda rayon Daxili İşlər Şöbəsinin və MTN Departamentinin binalarına hücum edib.

Silahlı şəxsin və ya şəxslərin şəhərdə dolaşaraq atəş aşmağa davam etdiyi bildirilir. Onlarınn qeyri-ənənəvi dini cərəyanın nümayəndəsi olduğu güman olunur.

## İran, Rusiya və Azərbaycan prezidentlərinin görüşü nəzərdə tutulub

**"Rəsmi Moskva İranla sərhəddə, təmas xəttində Rusiya sülhməramlılarının yerləşdirilməsi məsələsində İranın müsbət cavab verməsi üçün əlindən gələni edir. İran isə buna qarşıdır."**

"Report"un xəbərinə görə, bu barədə Ermənistanın "Qraparak" qəzeti ölkənin Xarici işlər Nazirliyindəki mənbəyə istinadən yazıb.

Mənbə bildirib ki, İran heç vaxt buna razılıq verməyəcək: "Rusiyanın fikrincə, bu məsələdə ATƏT özünün monitorinq qrupu missiyasının genişləndirilməsinə, təmas xəttində NATO-ya yaxın kontingentin yerləşdirilməsinə cəhd göstərəcək. Ona görə də bu oyunda Rusiya ümid edir ki, İran daimi dostu Rusiyanı seçərək düzgün addım atacaq. Ancaq bu məsələdə Rusiya prezidenti Vladimir Putinin İranlı həmkarı Həsən Ruhanini razı salması çətin görünür."

Qəzet yazır ki, avqustun 8 -də İran, Rusiya və Azərbaycan prezidentlərinin görüşü nəzərdə tutulur.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

**İyulun 17-də “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun doğum günü idi. Öldürülməsəydi tanınmış tənqidçi jurnalistin 49 yaşı tamam olacaqdı. 2005-ci il martın 2-də yaşadığı binanın blokundakı pilləkənlərdə odlu silahdan açılan atəşlərlə öldürüləndən sonra qatillərin tezliklə tutulacağı vəd edilmişdi.**

# MTN ləğv edildi, Çovdarov tutuldu, amma Elmarın qətli açılmadı...

## Həmkarımızın qətlində adıçəkilən həbsdəki generala qarşı bu iddialar araşdırılmır


Elmar Hüseynov

Həmin gündən bizi 11 ildən artıq bir zaman kəsiyi ayırır. Bu müddət ərzində Elmar Hüseynovun qətl işinin istintaqı yerində sayıb. Buna baxmayaraq, baş redaktorun qətlində iştirak etmiş qrup üzvləri, qətlin törədilməsində təşkilatçılıq etmiş şəxsin kimliyi haqda məlumatlar yayılıb. 2015-ci il oktyabrın 17-də Eldar Mahmudov vəzifədən uzaqlaşdırıldıqdan sonra qurumun yüksək vəzifəli əməkdaşlarının həbsi Elmar Hüseynovun qətlini bir daha diqqət mərkəzinə gətirdi. Bu da səbəbsiz deyildi.

Çünki Elmar Hüseynovun qətlindən sonra MTN-in yüksək vəzifəli şəxslərinin adı ötən illər ərzində qətllə əlaqəli gündəmə gəlmişdi. İşdə qətlin təşkilatçısı kimi MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovun adı hallanırdı. A.Çovdarovun bu qətlin təşkilatçısı olduğunu 2010-cu ilin yayında o zaman həbsdə olan jurnalist Eynulla Fətullayev gündəmə gətirmişdi. Demişdi ki, qətl A.Çovdarov tərəfindən təşkil olunub, Akif Çovdarov öz rəhbərliyinin tapşırığı ilə bu və digər qətllərin həyata keçirilməsi ilə məşğul olub.

Qeyd edək ki, “Monitor”un baş redaktoru Elmar Hüseynovun qətlində icraçı kimi 5 Gürcüstan vətəndaşının adı keçir. Bunlar Gürcüstan vətəndaşları Tahir Xubanov, Teymuraz Əliyev, Arçil Kasiya, Nuqzar Bolkvadze və Serqo Davrişovdur. Onların şəxsiyyəti, qətldən əvvəl qaldıqları ev, Azərbaycana qətl törədilən il yanvar və fevral ayında bir neçə dəfə gəlib-getmələri bilinir. Onlar sonuncu dəfə Azərbaycanı 2005-ci il mart ayının 3-də səhər saat 8:24-də (Elmar Hüseynov qətlə yetirildiyi gecənin səhəri) tərk ediblər. Gürcüstan hüquq-mühafizə orqanları müxtəlif təşkilatların müraciətlərinə cavab olaraq bu şəxslərin barəsində Azərbaycan hüquq-mühafizə orqanlarının müraciətlərinin olacağı təqdirdə müvafiq addımların atılacağını bəyan etmələrinə rəğmən, belə bir müraciət 11 il ərzində göndərilməyib.

❑ **E.HÜSEYNOV**



# Nəsimi Rayon İcra Hakimiyyətində jurnalistlərlə görüş keçirildi

## Milli Mətbuat Günü ərəfəsində bir sıra media əməkdaşları mükafatlandırıldı



**Milli Mətbuatın 141 illiyi ərəfəsində Nəsimi Rayon İcra Hakimiyyətində jurnalistlərlə görüş keçirilib. Musavat.com bildirir ki, tədbir Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, Mətbuat Şurası və TV, qəzet və elektron informasiya vasitələri nümayəndələrinin, rayon ictimaiyyətinin iştirakı ilə baş tutub.**

Tədbiri girsi sözü ilə açan Nəsimi rayon İH-nin başçısı Asif Əsgərov bildirib ki, bu il artıq 141 illiyi qeyd edilən Azərbaycan Milli Mətbuatı böyük və şərəfli inkişaf yolu keçib, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olub:

“Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirib. Müstəqilliyin əldə edilməsindən sonra Azərbaycanda KİV-lərin sayında önəmli ölçüdə irəliləyiş baş verib. Ölkədə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Artıq Azərbaycan mətbuatı həm kəmiyyət, həm də keyfiyyət baxımından region ölkələrini qabaqlayır".

Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli də çıxış edərək Milli Mətbuatın 141 illiyi ilə əlaqədar ölkə başçısının sərəncamına uyğun olaraq respublikanın bölgələrində keçirilən tədbirlər, rəhbərlik etdiyi qurumun fəaliyyət göstərdiyi müddət ərzində görülən işlər barədə məlumat verib.

Daha sonra Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və müxtəlif mətbuat orqanlarının rəhbərləri çıxış edərək Milli Mətbuatımızın zəngin və şərəfli yoluna nəzər salıb, ölkəmiz müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan, həmçinin dövlət orqanları ilə mətbuat nümayəndələri arasında sıx əlaqələrin qurulmasının və bu kimi tədbirlərin keçirilməsinin vacibliyindən danışıblar.

Tədbirdə jurnalistləri maraqlandıran suallar cavablandırılıb və Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən Milli Mətbuat günü münasibətilə “Yeni Müsavat” qəzetinin əməkdaşı da daxil olmaqla müxtəlif KİV nümayəndələrinə hədiyyələr verilib.

❑ **Xalidə GƏRAY**

# REAL sədrinin Ali Məhkəməyə müraciətinə baxılması yubadılır

## Amnistiyaya düşən Müsavat başqanının müavininin nə zaman azad ediləcəyi isə məlum deyil

**Həbsdə olan REAL hərəkatının sədri İlqar Məmmədovun kasasiya şikayəti verməsinin üzərindən 1 aya yaxın vaxt ötür. Hələ də onun Ali Məhkəməsinin nə zaman olacağı məlum deyil.**

REAL sədrinin ailəsi iyulun 16-da onunla görüşüb. Bu barədə “Yeni Müsavat”a İ.Məmmədovun həyat yoldaşı **Vəfa Məmmədova** məlumat verdi: “İlqarla bazar günü danışdıq. Ondan bir gün öncə də həbsxanada görüşdük. Ümumi vəziyyəti normaldır. Hər şey əvvəlki kimidir. Məhkəmədən heç bir xəbər yoxdur. İlqarın özü də prosesi gözləyir”.

Xatırladaq ki, İlqar Məmmədov 2013-cü il fevralın 4-də İsmayıllı rayonunda kütləvi etiraz aksiyası ilə bağlı hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə, xuliqanlıq ittihamları ilə həbs edilib. O, 2013-cü ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə təqsirləndirilir. 2014-cü il martın 17-də 7 il müddətinə azadlıqdan məhrum edilib. Avropa İnsan Haqları Məhkəməsinin onun azadlığa buraxılması barədə bir neçə qərarı var.


İlqar Məmmədov


Fərəc Kərimli

Artıq bir aydır icra prosesi aparılan amnistiya aktına düşən Müsavat başqanının müavini Fərəc Kərimlinin azadlığa nə zaman çıxacağı dəqiqləşməyib. Saxlanıldığı 14 saylı cəzaçəkmə müəssisəsində amnistiyaya düşənlərin çoxu azad edilsə də, hələ bu qərar ona şamil edilməyib. Bazar günü F.Kərimlinin ailəsi onunla görüşüb. **Vicdan məhbusunun atası Raqif Kərimli görüş barədə bunları dedi:** “Fərəcin vəziyyəti yaxşıdır. Həbsxanadan deyiblər ki, bütün sənədlərin hazırdır. Belə çıxır ki, bir sərəncam da azad edilməsi ilə bağlı verilməlidir. Yəni razılıq verilməsini gözləyirlər. Rəis Fərəcə deyib ki, 5-10 gün burada qonaqsan. Hətta sənədlərinin cəzaçəkmə müəssisəsinə gəlməsini də deyiblər. Həmin müəssisədə amnistiya ilə azadlığa buraxılanlar indiyə qədər çox olub”.

Qeyd edək ki, Fərəc Kərimli 2014-cü il iyulun 23-də həbs edilib. Ona qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə (kütləvi şəkildə narkotik maddələr əldə etmə, saxlama və satma) cinayət işi açılıb və məhkəmə qərarı ilə 6 il yarım azadlıqdan məhrum edilib. Bu ilin mayında Ali Məhkəmə onun həbs müddətini 3 ilə qədər endirdiyinə görə, qəbul edilən amnistiya aktı ona da şamil olunub.

❑ **Cavanşir ABBASLI**

# Ən səs-küylü 3 məhkəmə prosesi...

## Tale Bağırzadə, yanan binalar, şeyxin adamı ilə bağlı məhkəmə iclasları iyunun 19-da davam edəcək

**2015-ci il mayın 19-da Binəqədi rayonunda 16 mərtəbəli yaşayış binasında baş verən dəhşətli yanğınla bağlı məhkəmə prsosesi iyulun 19-da davam etdiriləcək.**

15 nəfərin dünyasını dəyişdiyi, 50-dən çox insanın xəsarət aldığı yanğında ümumilikdə 100-dən çox insan zərərçəkmiş kimi tanınıb. Hazırda davam edən prosesdə zərərçəkmişlər ifadə verir.

İyulun 19-da davam edən prosesdə də zərərçəkmişlər ifadə verəcək. Bu günə qədər ifadə verən zərəçəkmişlər onlara dəymiş maddi zərərin ödənilməməsindən narazılıqlarını bildiriblər.

Yanğına görə həbs edilən 8 nəfər zərərçəkmişlərdən sonra ifadə verəcək.

Eyni gündə- iyulun 19-da Xətai rayonu, Zığ şossesində yerləşən 9 mərtəbəli binada baş verən yanğınla bağlı məhkəmə prosesi davam etdiriləcək. İnsan tələfatına səbəb olmayan və Binəqədidəki yanğından bir neçə gün əvvəl baş verən yanğından sonra zərərçəkmiş kimi tanınmış şəxslər məhkəmədə ifadə verəcəklər.

Bu yanğına görə binanı penoplastla üzləyən “TNH” şirkətinin rəhbəri Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilərək həbs ediliblər.

N.Muxtarov iyunun 14-də saxlanıldığı təcridxanada infarkt keçirib. Onun həyatını xilas etmək mümkün olmayıb.

Günün ən səs-küylü məhkəmə proseslərindən biri isə ötən il Nardaran hadisələri zamanı həbs edilən “Müsəlman Birliyi” hərəkatının rəhbəri Taleh Bağırzadənin məhkəmə prosesi olacaq. T.Bağırzadə ilə yanaşı onunla birlikdə həbs edilən 18 tərəfdarı Bakı Ağır Cinayətlər Məhkəməsində hakim qarşısına çıxarılacaq.

T.Bağırzadə ötən il noyabrın 26-da Nardaranda polislə dindarlar arasında baş verən silahlı qarşıdurma zamanı həbs edilmişdi. Silahlı qarşıdurma zamanı 2-si polis əməkdaşı olmaqla 6 nəfər dünyasını dəyişmişdi.

T.Bağırzadə Cinayət Məcəlləsinin 120-ci, 228.4-cü (qanunsuz olaraq silah gəzdirmə) və digər maddələri ilə ittiham olunur.

İyulun 19-da daha bir maraqla gözlənilən məhkəmə prosesi də baş tutacaq. İlahiyyatçı, Qafqaz Müsəlmanları İdarəsinin keçmiş sektor müdiri Elşən Mustafayev hakim qarşısına çıxarılacaq. Ötən məhkəmə prosesində sensasion açıqlamalar verən E.Mustafayev keçmiş MTN-də ondan Allahşükür Paşazadə və Milli Qəhrəman Rövşən Əkbərovun əleyhinə ifadə almaq istənildiyini demişdi. Kifayət qədər səs-küyə səbəb olan bu açıqlamaları verən E.Mustafayevin həbs olunma səbəbinə gəlincə, o, 2014-cü il dekabrın 16-da həbs olunub və CM-in 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunur.

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016



# Generalın qulağı kəsilirsə...

Xalid KAZIMLI

**Türkiyədə baş verən uğursuz hərbi çevrilişin nəticələrinə dair iki cür görüntülər var. Birini hakimiyyətə yaxın media qurumları yayır, o birini isə əsasən müstəqil və müxalifət mövqeyində olanlar.**

Bir tərəf qiyamçı əsgərlərin qiyama etiraz edən əliyalın xalqa atəş açmalarını, günahsız insanları qətlə yetirmələrini, qan-qadanı, göz yaşlarını göstərir.

O biri tərəf əlini qaldırıb təslim olan *(günahlı-günahsız, fərqi yoxdur)* əsgərlərin linç edilməsini, dünənə qədər başları həmişə dik dursun deyə furajkalarını gözlərinin üstünə endirən general və polkovniklərin əsir götürülmüş düşmən əsgərinə döndərilməsini, onlara verilmiş işgəncələrin izlərini nümayiş etdirir.

Hər iki tərəf həqiqəti göstərir. Bunlar hamısı gerçəkdir. Hələ heç də hamısı deyil.

İyulun 15-dən 16-na keçən gecə Türkiyədə, paytaxt Ankarada və baş meqapolis İstanbulda görünməmiş qəddarlıq, amansızlıq, hətta aşkar vəhşiliklər törədilib.

Heç kəs bu görüntüləri soyuqqanlı şəkildə izləyə bilməz. Kim bu şəkillərə və videolara baxarkən, əzilənlər haqqında "əcəb oldu, onlara bu da azdır" deyirsə, deyə bilirsə, artıq o vəhşiliklərə şərik olur.

Əsgərin əliyalın insanlara güllə atması qəddarlıqdır, söz yox. Çox da ki, komandir "vur" əmri verir, amma əsgərin önündəkini vurmamaq imkanı var. O görür ki, onun qarşısındakı düşmən deyil, silahlı deyil, heç bir təhlükə törətmir, deməli, gülləni havaya da ata bilər, daha insanları üreyindən vurmaz.

Eyni zamanda aldıqları əmr əsasında hansısa strateji obyekti götürən və orada sıxışıb qaldıqdan sonra müqavimət göstərmədən təslim olan əsgərlərin linç edilməsi, ölümünə döyülməsi, öldürülməsi amansızlıq, qəddarlıq, hətta hərbi cinayətdir.

Heç kəsin silahını yerə atıb təslim olan qiyamçı əsgəri *(eləcə də bir qanqsteri)* özbaşına döymək, öldürmək hüququ yoxdur. Bu davranışı müharibənin qızğın çağında düşmən əsgərinə qarşı göstərənlər beynəlxalq hərbi tribunallar qarşısında cavab verirlər.

Amma biz türk generalının qulağını kəsilmiş görürük.

Qulaq kəsmək də nə deməkdir? Bu nə cəza növüdür, nəyin qisasıdır? Adam cinayət törədib, hakimiyyəti devirmək istəyib, xalqa silah qaldırıb, çox pis, qanun var, məhkəmə var, ordu mühakimə edilməli, ən ağır şəkildə cəzalandırılmalıdır.

Bir generalın *(Akın Öztürkün)* qulağının kəsilməsi, işgəncəyə məruz qoyulması *(yayılan videolarda onun boynunda, qollarında işgəncə izləri aydın görünür)*, yüksək rütbəli zabitlərin polis idarələrində alçaldılması, əsgərlərin şalvarlarının çıxarılması da cinayət tərkibli əməllərdir.

Hələ bu gün-sabah tutulan zabitlərin zorlanması barədə də xəbərlər gələcək. Bunu gedişat göstərir. Qəddarlıq, nifrət kükrəyişi bu həddədir.

Meydanlarda qiyamçılar üçün edam tələblərinin səslənməsi əndazəsini aşmış öfkədən, partlama nöqtəsinə çatmış nifrətdən irəli gəlir. Bir tərəf o birini mütləq şəkildə məhv etmək istəyir.

Bütün bu mənzərə orta çağ vəhşiliyinin, 300-500 il əvvəlin qəddarlığının göstəricisidir. Nə fərqi qaldı, sultanlar da qiyam qaldırmış əsgərlərin boyunlarını vurdururdular, indi də həmin rüzgarlar əsməkdə, edam tələbləri səslənməkdədir. İnsan haqlarına riayət, qanunun aliliyi, şərəf və ləyaqətin alçaldılmaması prinsipləri plintus səviyyəsindədir.

Avropa ailəsinə qatılmaq istəyən bir dövlətdə bunca gerilikçi qisas və cəzalandırma üsulları varsa, demək, qitənin böyük dövlətlərinin Türkiyənin Avropa birliyinə daxil olmasına etiraz edərkən bir bildikləri varmış.

Dünyanın tərəqqipərvər ictimaiyyəti bu cür davranışları normal qarşılaya, onlara haqq qazandıra bilməz. Törətdiyi cinayətin motivindən asılı olmayaraq, qollarına qandal vurulmuş və artıq köməksiz vəziyyətdə olan insanların bu günə qoyulması mütləq ikrahla qarşılanır və bundan sonra da bənzər qiyməti alacaq.

1980-ci il çevrilişinin qurbanlarından danışarkən göz yaşlarını saxlaya bilməyən vəzifəli şəxslər indi öz tərəfdarlarının etdiyi eyni qəddarlıqlara göz yumurlar.

Bu kimi hallar Azərbaycanın ictimai-siyasi fəalları arasında da normal qarşılanmayıb. Hiss olunur ki, onlar hər cür şiddətə, qəddarlığa, amansızlığa qarşıdırlar. Bu, o demək deyil ki, o şəxslər qiyamçılara haqq qazandırırlar. Elə deyil. Əgər hərbi qiyam baş tutsaydı və qiyamçılar əliyalın xalqa və ya Ərdoğanın tərəfdarlarına bu cür zülm etsəydilər, yenə bizim fəallar mütləq zalımlara qarşı olacaqdılar.

İnsan insana zülm etməməlidir.

**P.S.** *Unutmayaq ki, yüz il əvvəl türk əsgərinin erməni paşa Andronik Uzunyanın qulağını kəsməsi sonradan minlərlə Anadolu və Azərbaycan türkünün qətlinə səbəb oldu.*

# Paşazadələrin həbsdəki şəriki Roma papasından kömək istədi

**Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin ailə üzvləri ilə şərik olmuş, hazırda məhbus olaraq Bakı İstintaq Təcridxanasında saxlanılan Müğdət Həşimov bu ilin sentyabrında Bakıya səfər edəcək Roma papası Fransiskə açıq məktub ünvanlayıb.**

## Müğdət Həşimov: "İnsan talelərinə bu qədər fərqli münasibət sizə üz tutmağıma səbəb oldu"



Cavanşir Paşazadə

**M.Həşimov məktubunda yazır:**

"Hörmətli Roma papası Fransisk!

Sizə müraciət edən 59 yaşlı, ağır xəstə olan azərbaycanlı məhbusdur. 1 il əvvəl sifarişlə həbs edilmişəm. Saxta ittihamla 1 ildir zindan həyatı yaşayıram. Həbsimin səbəbkarı Milli Məclisin deputatı, Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin qardaşı Cavanşir Paşazadədir. Onun ailə üzvləri və şəxsən Cavanşir Paşazadə ilə 2 iş müqaviləsi bağlamışam. Həmin müqavilələr 2019-cu ilə qədər qüvvədədir. Paşazadələr müqavilələri birtərəfli qaydada pozub və mənim qanunsuz olaraq həbsimə yol açıblar. Müqavilələrdən də aydın olur ki, bu, mülki qaydada həll olunmalı işdir. Barəmdə qanunsuz olaraq cinayət işi başladıb həbsə aldırıblar. 2 il yarımdır tutduqları mövqe və səlahiyyətlərindən yararlanaraq mənə qarşı özbaşınalıq edirlər".

**M.Həşimov pontifikə məktubunda müraciətini şərtləndirən məqamı da qeyd edir:**

"Hörmətli Papa Fransisk, bir dəfə televiziya ekranında sizin hüququ pozulmuş bir zənci qadının ayağını yuyub öpdüyünüzü gördüm. Ani olaraq Paşazadələrin əməlləri ilə sizin etdikləriniz arasında müqayisə apardım və insan talelərinə bu qədər fərqli münasibət sizə üz tutmağıma səbəb oldu.

Mən və ailə üzvlərim dəfələrlə Bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin mənzilləndiyi Allahın evinə, "Təzəpir" məscidinə gedib bizim din rəhbərinin qəbuluna düşmək istəmişik. Ailə üzvlərimi oradan zor tətbiq etməklə uzaqlaşdırıblar. Bizim Azərbaycanın din rəhbərinin və onun qardaşının mənə və ailəmə yasatdıqları, sadəcə, insanlıqdan, dindən uzaq hərəkətlərdir.

Sizin insanpərvərliyinizə, insan sevginizə güvənərək öz dinimdən olmayan din rəhbəri kimi sizə müraciət edirəm.

Hörmətli Papa Fransisk, sizi pozulmuş insan hüquqlarımı, yaşamaq haqqımın müdafiəsinə çağırıram. Tezliklə səsimə səs verəcəyinizi gözləyirəm".

**M.Həşimov yazır ki, özünün və yaxınlarının Azərbaycanın ən müxtəlif instansiyalarına ünvanladığı müraciətlərə, şikayət ərizələrinə heç bir reaksiya verilməyib:** "Hörmətli müqəddəs ata, həyat davam edir. 59 yaşımda ağır xəstəliklə haqsızlığa, mənfur və vicdansız sifarişə qarşı mübarizə aparıram. İnsan övladı var olduğu gündən bir canlı qarışqanı yarada bilməyib. Pulun, var-dövlətin əsirinə çevrilən Paşazadələr nəinki qarışqanı, canlı insanı məhv etməkdən, ailəsini başsız qoymaqdan zövq alır. Bununla öyünürlər. Bir tərəfdən müqəddəs kitabımız Qurandan misal çəkir, o biri tərəfdən haqsızlığın, ədalətsizliyin, xainliyin rəmzi olan yezidin yoluyla gedirlər. Özlərinə uyğun havadarları da bir telefon zənginə müntəzirdir. Bütün bunlar Azərbaycanda baş verir. 2010-cu ildə ürəyimdə ağır əməliyyat aparılıb. Himayəmdə ağır xəstəliyə düçar olmuş övladım var. Azərbaycan Jurnalistlər Birliyinin üzvüyəm. 1980-ci ildə ADU-nu bitirmişəm, kitab müəllifiyəm. Paşazadələr həyatımı cəhənnəmə çeviriblər. Ümid edirəm ki, sizin insanpərvərliyiniz, həqiqətə xidmət etməyiniz mənə qarşı törədilən cinayət əməlinin - haqsızlığın ifşa olunmasında yardımçı olacaq".

❑ E.HÜSEYNOV

# Rusiya və İran prezidentlərinin Bakı səfəri - əsas gözlənti

## Qabil Hüseynli: "Kreml regionda güclü ittifaqın yaranmasında maraqlıdır"

**Rusiya prezidenti Vladimir Putin və İranın dövlət başçısı Həsən Ruhaninin Azərbaycana səfərə gələcəyi barədə məlumat verilib. Rusiya rəhbərinin səfər tarixi hələ dəqiqləşməsə də, Ruhani 8-10 avqust aralığında Azərbaycanda olacaq.**



Regionda ciddi söz sahiblərindən olan iki dövlətin prezidentlərinin Bakı səfərindən isə ciddi gözləntilər var. Xüsusilə Qarabağ probleminin həlli istiqamətində önəmli gəlişmələrin davam etdiyi bir vaxtda Putin və Ruhaninin Azərbaycana gəlişinin problemin həllinə müsbət töhfələr verəcəyi proqnozlaşdırılır. Bəzi ekspertlərə görə, bu səfərlər hər iki dövlətin Azərbaycan və Ermənistan arasında balanslaşdırma siyasətindən də doğa bilər. Çünki Putin və Ruhani Azərbaycana yanaşı, təcavüzkar ölkəyə də səfər planlaşdırırlar.

**Politoloq Qabil Hüseynli Rusiya və İran prezidentlərinin gözlənilən səfərlərinin iqtisadi əhəmiyyətindən söz açdı:** "Gündəmdə olan məsələlər içərisində iqtisadi məsələlər ilk yeri tutacaq. Buraya qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi, eləcə də üç ölkə arasında ticarət əlaqələrini nizama salacaq "Şimal-Cənub Dəmir Yolu"nun işə salınması və Xəzərin statusunun müzakirəsi daxildir. "Şimal-Cənub Dəhlizi" Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. Amma Xəzərin statusu məsələsində İranın mövqeyi məqbul sayıla bilməz. Çünki Tehran dənizin bərabər bölünməsində israrını davam etdirir. Bu görüşlərdə Xəzərin statusu ilə bağlı ortaq məxrəcə gəlmək olar. Bu zaman yaxın qonşuluq əlaqələri xeyli güclənə bilər. İran-Rusiya-Azərbaycan münasibətləri daha da yaxşılaşar. Bu kontekstdə İranın Ermənistana etdiyi kömək məlumdur. Yaxınlarda qaz ixracatını artırması, Ruhaninin Ermənistana səfərinin gözlənilməsi ümumi xoş ovqatı müəyyən qədər korlayıb. Amma istənilən halda İran yaxın qonşumuzdur. Orada ən böyük etnik qrup azərbaycanlılardır və ölkənin idarəçiliyində önəmli rol oynayırlar. Aparılan danışıqlar istənilən halda önəmlidir".

**Politoloq gözlənilən səfərlərdə Qarabağ probleminin də gündəmə gətiriləcəyini istisna etmədi:** "İranın iştirakı ilə Dağlıq Qarabağ məsələsinin müzakirəsi rol oynaya bilməz. Çünki Qərb dünyası, ATƏT, bu məsələni həll etmək istəyən dövlətlər Tehranın burada iştirak cəhdlərini qəbul etmək istəmirlər. İran hətta vasitəçi olmaq niyyətindədir. Bu da ağlabatan bir şey deyil. İran Ermənistanı təzyiq altında saxlamalıdır ki, işğal olunan torpaqlar azad olunsun. Amma bunları rəsmi Tehran etmir. İran bu məsələlərdə yüz ölçüb, bir biçməlidir. Rusiya İranla münasibətləri düzəldə bilib, indi isə Azərbaycanı təsir altında saxlamaq istəyir. Eyni zamanda regionda güclü ittifaqın yaranmasında maraqlıdır. Rusiya Azərbaycan-İran-Rusiya ittifaqının bölgədə sakitliyə səbəb olacağını iddia edir. Amma Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca, Ermənistana təzyiqlər artmayınca, bu üçlər ittifaqının gerçəkləşməsi mümkün deyil. Amma normal ticarət əlaqələrinin olması hər üç ölkə üçün sərfəlidir".

**Q.Hüseynli də İran və Rusiyanın balanslı siyasət yürütdüyünü bildirdi:** "Bütün bunlar açıq-aşkar balanslaşdırılmış siyasətdir. Bu, həm Rusiya, həm də İranda qabarıq şəkildə büruzə verir. Ruhani hakimiyyətə gəldikdən sonra İranla münasibətlər xeyli canlanıb. Ermənistanla münasibətləri bu səviyyəyə çatdırmaqla Ruhani Cənubi və Şimalı Azərbaycanı məngənə altında saxlamaq istəyir. Ruslar isə ənənəvi siyasətlərindən istifadə edirlər. Putinin Ermənistana gözlənilən səfəri də növbəti rezonanslardan biridir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016

# Referenduma gedirik - prezidentlik 7 il olur, vitse-prezidentlik institutu yaradılır; baş nazir postu ləğv olunur

## Dövlət başçısı Milli Məclisi buraxmaq səlahiyyətinə də malik olacaq; 35 yaş senzi aradan qaldırılır; prezident mühüm dəyişiklikləri ehtiva edən Referendum Aktı layihəsinin rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında sərəncam imzaladı

**Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Referendum Aktı layihəsini rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında sərəncam imzalayıb. (AzərTAc)**




**Konstitusiyaya aşağıdak dəyişikliklərin edilməsi təklif olunur:**

**9-cu maddənin I hissəsi aşağıdakı redaksiyada verilsin:**

“I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.”.

**2. 24-cü maddədə:**

2.1. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda I hissə əlavə edilsin:

“I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.”;

2.2. III hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Hüquqlardan sui-istifadəyə yol verilmir.”.

**3. 25-ci maddədə:**

3.1. III hissənin birinci cümləsində “milliyyətindən” sözü “etnik mənsubiyyətindən” sözləri ilə, ikinci cümləsində “milli” sözü “etnik” sözü ilə əvəz edilsin;

**3.2. aşağıdakı məzmunda VI hissə əlavə edilsin:**

“VI. Fiziki və əqli qüsurları olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.”.

**4. 29-cu maddədə:**

4.1. V hissə VII hissə hesab edilsin;

**4.2. aşağıdakı məzmunda V və VI hissələr əlavə edilsin:**

“V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.

VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.”.

**5. 32-ci maddəyə aşağıdakı məzmunda VI, VII və VIII hissələr əlavə edilsin:**

“VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.

VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.

VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.”.

**6. 36-cı maddədə:**

6.1. II hissədən “və digər silahlı birləşmələrdə” sözləri çıxarılsın;

**6.2. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:**

“IV. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır”.

7. 47-ci maddənin III hissəsində “sosial” sözündən sonra “və hər hansı digər meyara əsaslanan” sözləri əlavə edilsin.

8. 49-cu maddənin II hissəsində “etməklə” sözündən sonra “, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə,” sözləri əlavə edilsin.

9. 53-cü maddənin I hissəsində “heç bir halda” sözləri çıxarılsın və “vətəndaşlığından” sözündən sonra “(onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla)” sözləri əlavə edilsin.

10. 56-cı maddənin III hissəsində “seçkilərdə iştirak etmək” sözləri “seçilmək” sözü ilə əvəz edilsin.

11. 57-ci maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər”.

12. 58-ci maddənin IV hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır”.

**13. 59-cu maddədə:**

13.1. maddənin mətni I hissə hesab edilsin və həmin hissədən “qanunla nəzərdə tutulmuş qaydada” sözləri çıxarılsın;

13.2. aşağıdakı məzmunda II hissə əlavə edilsin:

“II. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyat və sağlamlığının müdafiəsi ilə bağlı tənzimlənməni həyata keçirir”.

14. 60-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı

I. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşsınlar və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

III. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.

IV. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.”.

**15. 68-ci maddədə:**

15.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

“Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ”;

15.2. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin;

15.3. aşağıdakı məzmunda I və IV hissələr əlavə edilsin:

“I. Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.”;

“IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.”.

16. 71-ci maddənin II hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır.”.

17. 85-ci maddənin I hissəsində “yaşı 25-dən aşağı olmayan” sözləri “seçkilərdə iştirak etmək hüququna malik olan” sözləri ilə əvəz edilsin.

18. 89-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

“6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.”.

19. Aşağıdakı məzmunda 981-ci maddə əlavə edilsin:

“Maddə 981. Azərbaycan Respublikası Milli Məclisinin buraxılması

Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda onlara üzvlüyə namizədləri iki dəfə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır."

20. 100-cü maddədən “Yaşı otuz beşdən aşağı olmayan,” sözləri çıxarılsın.

21. 101-ci maddənin I hissəsində “5" rəqəmi "7" rəqəmi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilər.”.

22. Aşağıdakı məzmunda 103.1-ci maddə əlavə edilsin:

**“Maddə 1031. Azərbaycan Respublikasının vitse-prezidentləri**

I. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

II. Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.".

**23. 105-ci maddədə:**

23.1. I hissənin birinci cümləsində “üç ay ərzində” sözləri “60 gün müddətində” sözləri ilə, ikinci cümləsində “Baş naziri” sözləri “Birinci vitse-prezidenti” sözləri ilə əvəz edilsin;

23.2. II hissədə “Baş naziri” sözləri “Birinci vitse-prezidenti” sözləri ilə, “səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri” sözləri “müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini” sözləri ilə əvəz edilsin;

23.3. III hissə aşağıdakı redaksiyada verilsin:

“III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.”;

**23.4. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:**

“IV. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş nazirinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir. Həmin səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədrinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.”.

**24. Aşağıdakı məzmunda 1061-ci maddə əlavə edilsin:**

Maddə 1061. Azərbaycan Respublikası vitse-prezidentlərinin toxunulmazlığı

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır.

II. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

III. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

IV. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Prezidenti tərəfindən xitam verilə bilər".

25. Aşağıdakı məzmunda 1081-ci maddə əlavə edilsin:

“Maddə 1081. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin təminatı

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.".

**26. Aşağıdakı məzmunda 1101-ci maddə əlavə edilsin:**

“Maddə 1101. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun verilməsi

Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilər.".

**27. 121-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:**

“Azərbaycan Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.”.

28. 126-cı maddənin I hissəsində “Yaşı 30-dan aşağı olmayan, seçkilərdə” sözləri “Seçkilərdə” sözü ilə əvəz edilsin.

29. Aşağıdakı məzmunda 1461-ci maddə əlavə edilsin:

“Maddə 1461. Bələdiyyələrin məsuliyyəti

Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar".

**Göründüyü kimi, dəyişikliklər mühüm əhəmiyyət kəsb edir.**

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016

**Maliyyə Bazarlarına Nəzarət Palatası yaranan zaman bank sistemindəki problemləri çözəcəyi ehtimal edilsə də, bu gözləntilər özünü doğrultmayıb. Fevralda yaranan palatanın fəaliyyətində indiyədək yaddaqalan bir fakt yoxdur. Ekspertlər bildirirlər ki, palata banklarla bağlı hələ heç bir yoxlama aparmayıb. Həmçinin bank sistemindəki problemlərin aradan qaldırılması üçün hansısa tədbirlər görülməyib.**

# Nəzarət Palatası banklara nəzarət edə bilmir?

## Qurumun yaradılmasından beş ay keçsə də, bank sistemindəki problemlər çözülmək əvəzinə, dərinləşib...

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, palata ümumən yəqin ki, haradasa yoxlama aparır. Amma bu yoxlamaların hüquqi bazası yoxdur: "Bu günə palata qanunvericiliyə uyğun olaraq, banklar üçün heç bir qayda müəyyən edə bilmir. Çünki normativ hüquqi aktlar haqqında Konstitusiya qanununa uyğun olaraq banklar üçün normativ xarakterli aktlar qəbul edənlərin siyahısında palata göstərilməyib. Buna görə də palata indiyə kimi heç yoxlama qaydalarını qəbul etdirə bilməyib, həmin qaydalar yoxdur".

**Ekspertin sözlərinə görə, sahibkarların yoxlanması haqqında bizdə xüsusi qanunvericilik var:** "O qanunvericiliyə uyğun da dövlət qurumu yoxlamanı istədiyi vaxt keçirə bilmir. Həmin qanunda dövlət orqanları yoxlama kimi, yoxlayıcı qurum kimi nəzərdə tutulub. Palata isə dövlət orqanı deyil. Ona görə bu gün bankların yoxlanmasına görə qanunvericiliyin özündə boşluq var. Bu nöqteyi-nəzərdən palatanın bu dəqiqə banklarda apara biləcəyi hər hansı yoxlama qanunsuz olardı. Çünki heç bir qanuni əsası yoxdur. Amma yəqin ki, yoxlama aparır. Azərbaycanda dövlət qurumları qanunsuz fəaliyyət göstərə bilirlər. Amma bu yoxlamalar üçün də palatanın kifayət qədər resursu yoxdur. Birincisi, palata özü tam formalaşmayıb. Palata idarəetmə orqanı olan Direktorlar Şurasında 5 nəfərin yerinə hələlik 3 nəfər təyin olunub. Palata ümumilikdə tam formalaşmayıb, işçilərlə tam təmin edilməyib, kadrları kifayət qədər deyil. İşçilər aşağı maaşla işləmək istəmirlər. Palatanın isə pulu yoxdur. Palata banklardan və sığorta şirkətlərindən topladığı pul hesabına özünü saxlamalıdır. Amma banklar acınacaqlı vəziyyətdə olduğundan, palatanın da maliyyə problemləri var".

**Əkrəm Həsənovun sözlərinə görə, iyirmi ildən çox müddətdə Mərkəzi Bankın apardığı işlərin sənədlərini bu qurumdan təhvil-təslim etmək də vaxt aparır:** "Heç açıqlanmır ki, palata o sənədləri götürübmü? Kənardan görünür ki, bank sistemində ötən dörd ay ərzində müsbət heç nə baş verməyib. Bankların vəziyyəti gün-gündən pisləşir, əhali əmanətlərini çıxarır, kreditlər qayıtmır. Problemli kreditlərin həcmi artır. Banklar əhalinin əmanətlərini qaytarmır. Bankların öz maliyyə göstəriciləri də müsbət deyil, maliyyə hesabatlarını dərc etmirlər.




Hətta əvvəllər Mərkəzi Bank nəzarət edəndə banklar heç olmasa illik hesabatlarını dərc edirdilərsə, indi heç onu da dərc etmirlər. Bu baxımdan, vəziyyət yaxşılaşmaq əvəzinə, əksinə, pisləşib".

Qeyd edək ki, bir müddət əvvəl Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının tərkibi yenilənib. Şuranın sədri Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının üzvü İlqar Muradov təyin olunub. Bunadək bu vəzifəni "Unibank" ASC-nin Müşahidə Şurasının sədri Eldar Qəribov tutub. İqtisadiyyat Nazirliyinin strateji planlaşdırma və proqnozlaşdırma şöbəsinin müdiri Yalçın Əzizov, Maliyyə Nazirliyinin Maliyyə və sığorta bazarının tənzimlənməsi şöbəsinin müdiri Ziyəddin Allahverdiyev və "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri Elmar Məmmədov şuradakı yerini qoruyub. Mərkəzi Bankın baş direktoru Rəşad Orucov, Mərkəzi Bankın Hüquq departamentinin direktoru Rəna Məlikova, Mərkəzi Bankının Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin Daxili nəzarət şöbəsinin böyük inspektoru İsi Mustafayev Himayəçilik Şurasının üzvlüyündən çıxarılıb. Maliyyə Bazarlarına Nəzarət Palatasının Strateji Təhlil və Risklərin İdarəedilməsi İdarəsinin rəisi Asim Zülfüqarov, Mərkəzi Bankın Makroiqtisadi tədqiqatlar departamentinin direktoru Şaiq Adıgözəlov və "Kapitalbank" ASC-nin Müşahidə Şurasının sədri Cəlal Qasımov şuranın yeni üzvləridir.

Bəzi ekspertlər bunu sözügedən fondun Maliyyə Bazarlarına Nəzarət Palatasının nəzarətinə keçməsi kimi izah edirlər. Ə.Həsənov isə qeyd edib ki, Əmanətlərin Sığortalanması Fondunun rəsmi himayəçilər şurası 9 nəfərdən ibarətdir. Onların 2-si bankların nümayəndəsidir, qalanları isə dövlət orqanlarının nümayəndələridir. Palatadan burada üzv iki nəfərdir. "Formal baxsaq, amma faktiki fond bu dəqiqə palatanın təsiri altındadır. Fond demək olar ki, müflisdir. Çünki "Bank Technigue"nin bağlanmasından sonra fondun pulu bitib, hətta Mərkəzi Bankdan borc götürüb. Buna görə artıq heç bir bankı bağlamırlar. Bağlanmalı banklar var, amma bağlamırlar. Ona görə ki, fondun pulu yoxdur. Fond bu gün faktiki olaraq əmanətlərdən gələn pulun idarəedilməsindən yox, bir çox hallarda bankların ləğv edilməsindən qazanır. "Bank Technigue"nin ləğvedicisi həmin fonddur. Yəqin bu, onunla bağlıdır ki, fondun daha başqa işi-gücü yoxdur. Tapşırıblar ki, get, heç olmasa o bankla məşğul ol. Oradan gələn pulla işçilərə əməkhaqqı ver".

❑ **Röya RƏFİYEVA**

# FES dolları bahalaşdıracaq; manatın taleyi necə olacaq?



## Ekspertlər milli valyutanın ucuzlaşacağını, Neft Fondunun ehtiyatlarının isə dəyər qazanacağını bildirirlər...

**ABŞ-ın Federal Ehtiyat Sistemi (FES) yenidən dolları bahalaşdırmaq niyyətini açıqlayıb. İyun ayında ABŞ-da qeyri-aqrar sahədə 287 min və ya proqnozlaşdırılandan 107 mindən çox yeni iş yeri açılmasından sonra FES rəsmiləri uçot dərəcəsi ilə bağlı fikirlərini bölüşüb. Kanzas ştatının FES rəhbəri Ester Corc (Esther George) uçot dərəcəsinin olduqca aşağı olduğunu deyib. "Uçot dərəcəsinin mərhələli şəkildə artırılmasının tərəfdarıyam. Bu, risklərin minimuma endirilməsinə yardım edəcək. Arxada qoyduğumuz illər ərzində iqtisadiyyatımız rəqabətqabiliyyətli olduğunu sübut etdi",- deyə E.Corc qeyd edib. FES rəsmisi əmək bazarındakı son statistikanı olduqca müsbət qarşılayıb: "İşsizliyin səviyyəsi normaya olduqca yaxındır".**

Bildirilir ki, bu il iki iclasda uçot dərəcələrini artırmaq barədə qərar verə bilər. Filadelfiya ştatının Federal Ehtiyat Bankının (FEB) sədri Patrik Xarker qeyd edib ki, inflyasiya hədəf səviyyəsinə, yəni 2 faizə gələn il çatacaq: "Buna görə də mən hesab edirəm ki, FES bu ilin sonuna qədər iki dəfə faiz artırmağa məcbur qalacaq". O, həmçinin 2018-ci ilin sonuna qədər ABŞ-da uçot dərəcələrinin 3 faizə yaxınlaşacağını bildirib. P.Xarkerin fikrincə, ABŞ əmək bazarında artım sürəti yavaşlayıb, bununla bərabər qlobal risklər artıb. Belə ki, "Brexit" nəticəsində qlobal bazarlarda dalğalanmalar yaşanıb. Məhz bu səbəbdən FES uçot dərəcəsi faizlərini artırmağa cəhd etsə də xarici faktorlar buna mane olub və bu proses davam edir. Bankir "Brexit"in qeyri-müəyyənliyə səbəb olduğunu bildirsə də, onun ABŞ iqtisadiyyatına təsirinin zəif olacağını ehtimal etdiyini qeyd edib. Filadelfiya FEB sədri, "Brexit"in risk faktoru olaraq aşağı sıralarda yer aldığını, qısa zamanda ÜDM-ə mənfi təsirinin, sadəcə 0,2 bənd olacağını söyləyib. P.Xarker ABŞ iqtisadiyyatının bu il 2 faiz, qarşıdan gələn iki ildə isə müvafiq olaraq 2,3 faiz artacağını proqnozlaşdırıb.

ABŞ-ın Federal Ehtiyatlar Sisteminin direktoru Canet Yellen isə Filadelfiyada keçirdiyi mətbuat konfransında bəyan edib ki, uçot dərəcələri artırılmalıdır. Bununla belə, C.Yellen dəqiq tarix açıqlamayıb. Onun sözlərinə görə, 2-ci rübdə ABŞ-da ümumi daxili məhsulun artım tempi yüksək olacaq. Qeyd edək ki, ABŞ-da ilk rübdə iqtisadi artım 0,8 faiz təşkil edib.

Çin Mərkəzi Bankının (PBOC) sədr müavini Yi Gang, FES-in faiz artırmasının Çin iqtisadiyyatı üçün yaxşı olduğunu, tələbatın artması və ABŞ iqtisadiyyatının toparlandığı siqnalı olduğunu ifadə edib. Y.Gang Çinin ABŞ-ın faiz artımı qarşısında pul siyasətini hazırlamaq üçün bol vaxtı olduğunu bildirib və o, belə bəyanatı ilə FES-in faiz artırmasından qaynaqlana biləcək xarici təsirlərlə bağlı narahatlıqları azaldıb. Linin açıqlamasından əvvəl də bəyanatlar verən FES sədri Janet Yellen, iqtisadiyyatın digər bir faiz artımına hazır olması üçün kifayət qədər yaxşılaşacağına əmin olduğunu bildirmişdi. Yi rəsmilərin mütəmadi olaraq pul siyasətini təkmilləşdirəcəyini və daha təsirli ola biləcəyinə toxunaraq, PBOC ilə FES arasındakı ünsiyyətin yaxşı olduğunu deyib. O, FES-in faiz artırmasının dolların güclənməsini təmin edəcəyini və bunun sərmayənin ABŞ-a geri qayıtması ilə nəticələnəcəyini, bunun da inkişaf edən ölkələrin pullarının zəifləməsini təmin edəcəyini bildirib: **"Bir çox insan kapital axınlarına dair narahatlıq keçirir. Gələcəkdə sual FES-in faiz artırımlarının tempi və şiddəti barədə olacaq".**

Yerli ekspertlər isə musavat.com-a dolların bahalaşmasının manata gözlənilən təsirindən danışıblar. **Ekspert Əkrəm Həsənov** bildirib ki, faiz artımı ilin sonuna qədər mütləq baş verəcək: **"İstənilən halda FES faiz artımına gedəcək. Bu da bütün dünyada dolları bahalaşdıracaq. Bizdə onsuz da dolların bahalaşmasının digər amilləri də var. Amma eyni zamanda bütövlükdə bütün dünyada da dolların məzənnəsi artacaq. Bu da neftin qiymətinin enməsinə aparacaq".**

**Ekspert Qubad İbadoğlu** isə musavat.com-a bildirib ki, FES-in uçot dərəcəsini artırmasının manata birbaşa təsirindən söhbət gedə bilməz: "Azərbaycanın xarici ticarətində əsas alqı-satqı vahidi dollardır. Amma istənilən halda Azərbaycanla ABŞ arasındakı investisiya əməkdaşlığı, xarici ticarət əlaqələri o qədər də yüksək deyil. Lakin nəzərə almaq lazımdır ki, FES-in qərarında iki təsirdən söhbət gedə bilər. Bir tərəfdən, dolların hökmran mövqeyi bir az da möhkəmlənir və bu, Azərbaycanın Dövlət Neft Fondunun xüsusilə dollarla olan vəsaitlərinin dəyərini artıracaq. Neft Fondu dollarla olan vəsaitlərin məzənnə fərqindən müsbət gəlirlər əldə edəcək. Nəzərə alsaq ki, Neft Fondunun 25 faiz vəsaitləri dollarladır. Amma ölkənin valyuta bazarı çox həssasdır, çox kövrəkdir. Burada müsbət təsirlərdən danışmağa dəyməz. Manata etibar azalıb. Xüsusilə də dollar ABŞ-da qalxdıqca, burada manat qeyb olur. Manata psixoloji təsirləri olacaq. Valyuta bazarında manata olan təzyiq daha da artacaq".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016

**Türkiyədə çevrilişə cəhdin yatırılmasından sonra baş verən olayın pərdəarxası, detalları ilə bağlı araşdırmalar, şərhlər davam edir. Bugünlərdə bütün dünyanın gözü Türkiyə mediasındadır. Təbii ki, prosesin ən böyük ağırlığı da məhz medianın üzərinə düşüb. Bəs ümumilikdə Türkiyə mediası bu ölkə üçün növbəti tarixi sınaq olan olaylardan üzüağ çıxdımı? Eyni situasiyada Azərbaycan mediası olsaydı, bunu bacarardımı?**

# Türkiyə mediası son olaylardan üzüağ çıxdımı?

## Azərbaycanlı ekspertlərin məsələyə münasibəti birmənalı deyil

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev bildirdi ki, bu olayda yeni media ənənəvi media üzərində qələbə çaldı:** "Türkiyədə əsasən televiziyalar bu məsələdə operativ işlədi, ilk növbədə də NTV, ATV və sair. Bəzi televiziyalar isə çal-çağırdan geri qalmırdılar. Xəbər saytları və agentliklərdən "CNN Türk, "Türk xəbər" və digərləri operativ şəkildə informasiyaları verirdilər. Bu prosesdə sosial şəbəkələr də aktiv rol oynadı. Ərdoğanın xalqa ilk müraciəti də demək olar ki, sosial şəbəkə üzərindən yayımlandı. Burada əsas nüans odur ki, türk hərbçiləri ənənəvi olaraq TRT 1-i ələ keçirdilər və oradan xalqa müraciətlərini yaydılar. Köhnə üsulla təbliğat apardılar, sosial şəbəkələr və yeni media vasitəsilə heç bir iş aparılmadı. Bu, boşluq yaratdı. Ərdoğan və onun tərəfdarları isə daha çox yeni mediadan istifadə etdilər. Bu da prosesin onların xeyrinə bitməsində böyük rol oynadı. İlk dəfədir ki, Türkiyə cəmiyyəti belə bir çevriliş dövründə meydanlara çıxır. Bu da bir tərəfdən sosial şəbəkələrin təsiridir, digər tərəfdən isə onun göstəricisidir ki, Türkiyədə bir vətəndaş cəmiyyəti formalaşıb, cəmiyyətin siyasi fəalları artıb. Daha öncə Ərdoğanın mediaya, sosial şəbəkələrə qarşı sərt mövqeyi olub. Onlarla jurnalist həbsdədir, son zamanlar bəzi median orqanlarını və televiziyaları qapatmağa cəhd göstərilir. Vətəndaşlara təzyiqlər, insanların mitinqlərə çıxmasının qarşısının alınmasına cəhdlər göstərilirdi. Bu dəfə isə paradoksal bir haldır ki, Ərdoğan məhz media və xalqa müraciət edərək dəstək istədi. Bu, yeni bir dönəmdir və hesab edirəm ki, Ərdoğanın demokratiyaya, azad mediaya, vətəndaş cəmiyyətinə münasibəti köklü şəkildə dəyişməlidir. Ərdoğan onların güclənməsində maraqlı olmalıdır. Çünki bu gün Türkiyənin inkişafının bünövrəsi məhz vətəndaş cəmiyyəti və mediadan asılıdır".


Mehman Əliyev


Zeynal Məmmədli

**Azərbaycana gəldikdə isə ekspert bildirdi ki, bizdə də qardaş ölkə ilə oxşar vəziyyətdir, lakin bir qədər də acınacaqlıdır:** "Türkiyədə ən azından müstəqil media, ayrı-ayrı strukturların nəzarətində olan media qurumları var ki, bunlar fikir plüralizmi yaradır. Azərbaycanda isə bütün telekanallar dövlətin nəzarətindədir. Dövlət, ümumiyyətlə, medianın hansısa şəkildə müstəqil fəaliyyət göstərməsində maraqlı deyil. Yəni oxşar vəziyyət Azərbaycanda baş versə, yenə də ölkə başçısı media vasitəsilə xalqa müraciət edəcək. Necə ki, 1994-cü ildə media öz rolunu oynadı. Müstəqil media həmişə daha çox dövlətin maraqlarına uyğun fəaliyyət göstərir. Bu gün isə Azərbaycan mediası hakimiyyətdəki müəyyən qrupların maraqlarını qoruyur. Bu məsələdə səhv eləmək olmaz. Dövlətlə onun daxilindəki müəyyən qruplar tamam başqa şeylərdir. Ərdoğan deyir ki, Türkiyədə paralel dövlətlər mövcuddur. Bu isə dövlətçilik üçün təhlükədir. Azərbaycanda da bu vəziyyət var. "MTN işi" və başqa olaylar göstərdi ki, ölkəmizdə də bu problem mövcuddur. Türkiyədə baş verənlər nə vaxtsa Azərbaycan üçün də qaçılmaz ola bilər. Bu mənada hesab edirəm ki, bizim vəziyyətimiz daha da ağırdır. Çünki Azərbaycanda azad media institutu yoxdur. Sosial şəbəkələr var, müəyyən bir vətəndaş cəmiyyəti var. Amma hesab edirəm ki, vəziyyətimiz daha da acınacaqlıdır".

**Media eksperti Zeynal Məmmədliyə görə isə bütövlükdə Türkiyə mediasının işini yüksək qiymətləndirmək üçün əsaslar yetərincə deyil:** "Mən bugünlərdə Türkiyə mediasını çox ciddi şəkildə izlədim. Bu mənə nədənsə Qorbaçov dövrünün "Foros hadisələri"nin mətbuatda işıqlandırılmasını xatırlatdı. Burada da mən ona bənzərlik gördüm. Deməzdim ki, Türkiyə mediasında hərtərəfli, dolğun məlumat verməyə çalışıldı. Düzdür, situasiya jurnalistlər üçün kifayət qədər gözlənilməz və ağır oldu. Lakin bununla belə, mənim üçün media baxımından çoxlu suallar açıq qaldı. Jurnalistlər nə dərəcədə olayları müstəqil işıqlandırmağa çalışırdılar? Onlar mövcud hakimiyyətin təsiri altında idilərmi? Bütün dünyada bu situasiyalarda medianın nəcəliyi üzə çıxır. Türkiyə mediası ilə bağlı da mən çox təntənəli danışmaq istəməzdim. Obyektiv çətinliyi anlayıram, ancaq fikrimcə, media elə dolğun məlumat təqdim etmədi ki, insanlar nə baş verdiyini anlasınlar. Medianın necəliyi əslində çevrilişə cəhddən sonrakı dövrdə ortaya çıxacaq. Diqqət etsək, həmin vaxt TRT neytrallaşdırıldı. Özəl kanalların çoxu isə ancaq filmlər, şou-proqramlar verirdilər. Bir müddət yalnız NTV kanalı nə baş verdiyini araşdırmağa çalışdı. Digər televiziyaların yalnız çevrilişə cəhdin nəticələri bəlli olduqdan sonra bu haqda məlumat verməyə başlaması məndə çox böyük suallar doğurdu".

**Azərbaycan mediasının fövqəladə vəziyyətlərdəki davranışına gəlincə, Z. Məmmədli bu haqda pozitiv danışmağın mümkün olmadığını vurğuladı:** "Bu situasiyada Azərbaycan mediasını qiymətləndirsək, sözsüz ki, bizim media Türkiyə NTV-sindən daha hazırlıqsız fəaliyyət göstərəcək. Həmçinin dəyərləndirmə də biryönlü olacaq. Bu biryönlülük NTV-də də hiss olunurdu, lakin Azərbaycanda daha kəskin hiss olunacaqdı. Azərbaycan mediasında menecerlərin, medianı yönəldənlərin tərəddüdləri, gözləntiləri daha çox çəkəcəkdi. Azərbaycan Türkiyə ilə müqayisədə kiçik ölkədir. Bizdə ictimai rəyə təsir göstərən media qurumlarını barmaqla saymaq olar. Onları qiyamçı bir qüvvə də asanlıqla təsir altına ala bilər. Eyni zamanda onlar çox ətalətlə hakimiyyətdə olan gücün də tərəfində ola bilərlər. Bu baxımdan, mən hesab edirəm ki, bu kimi hallarda Azərbaycan mediası özünü heç də Türkiyə mediasından daha yaxşı göstərməyəcək. Ona bənzər olacaq, lakin daha aşağı səviyyədə göstərəcək".

❑ Nərgiz LİFTİYEVA

# ABŞ Fətullah Güləni Türkiyəyə verərmi?

## Ekspert: "Fətullah Gülən amili bundan sonra ABŞ üçün maraqlı olmaya bilər"


Fətullah Gülən

**Türkiyədə 15 iyul hadisələrində "Hizmət" hərəkatının ABŞ-da yaşayan lideri Fətullah Gülənin də ismi hallandı. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan hadisələrin səhəri günü çıxışında ABŞ-a müraciət edərək, Güləni təhvil vermələrini istədi. Ərdoğan bildirdi ki, daha öncə də onun ya ölkədən deportasiya edilməsini, ya da Türkiyəyə təhvil verilməsini istəyib: "Lakin dinləmədilər. İndi isə bu silahlı çevriliş cəhdindən sonra yenidən səslənirəm. Pensilvaniyadakı o zatı Türkiyəyə təslim edin. Əgər biz strateji tərəfdaşıqsa, bu tələbimizi yerinə yetirin. Siz bizdən hansı terroristi istədiniz, biz təhvil vermədik? İndi də terrorçu siyahımızda yer alan o şəxsi bizə təslim edin."**

ABŞ dövlət katibi Con Kerri isə Gülənin ekstradisiyası üçün Türkiyədən rəsmi tələb və dəlil istədi. Dövlət katibi onların heç kimi saxlamadıqlarını, yeganə istəklərinin dəlil olduğunu vurğuladı.

ABŞ Fətullah Güləni Türkiyəyə verərmi?

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Natiq Miri bildirib ki, Fətullah Gülən amili bundan sonra ABŞ üçün maraqlı olmaya bilər:** "Araşdırmalar nəticəsində ortaya çıxsa ki, Türkiyədə baş verən hərbi çevrilişə cəhd hadisələrində ABŞ-ın xüsusi xidmət orqanlarının da əli olub, təbii ki, bu, iki ölkə arasında münasibətlərdə gərginlik yaradacaq. ABŞ da bu cür gərginliyin marağında deyil. Bu baxımdan, indiki vəziyyətdə Türkiyəyə artıq bir o qədər də ciddi təsir imkanları qalmayan Fətullah Gülən amili bundan sonra ABŞ üçün o qədər də maraqlı olmaya bilər. Türkiyə ilə münasibətləri pozmamaq xətrinə onu ekstradisiya edə bilərlər. Ancaq bu hadisələr təbii ki, hüquqi müstəvidə baş verə bilər. Yəni bunun üçün mütləq hüquqi dəlil və sübutlar lazımdır ki, bunu Türkiyə ABŞ hakimiyyəti qarşısında əsaslandıra bilsin".

**Ekspert bildirib ki, Fətullah Gülən faktorundan çox bu hadisələrdə ABŞ-ın xüsusi xidmət orqanlarının əli olduğunu düşünür:** "Çünki hesab etmirəm ki, bu sayda general və yüksək çinli zabitlərin hamısı Fətullah Gülən sisteminə bağlı olsun. Hesab edirəm ki, burada Qərbin və xüsusilə ABŞ-ın xüsusi xidmət orqanlarının əli var. Çünki hadisənin səhəri günü günortaya qədər ABŞ-ın susması və münasibət bildirməməsi də müəyyən şübhələr yaratdı. Buradan hiss olunur ki, ABŞ-ın gözləntiləri daha çox başqa bir istiqamətdə olub, lakin onlar doğrulmayıb. Yalnız hərbi çevrilişin baş tutmamasından sonra qanuni hakimiyyətin müdafiəsi haqqında açıqlama verildi. Bu baxımdan, hadisələrdə xarici əllərin olduğunu düşünürəm. Ümumiyyətlə, bu cür hadisələr əsasən xarici dəstəkçilərsiz həyata keçirilmir. Hesab edirəm ki, Misirdə baş verən hadisələrin eynisi də Türkiyədə düşünülmüşdü".

**N. Miri söyləyib ki, Fətullah Gülən şəbəkəsinin 80 faizi demək olar ki, Türkiyədə bütün hakimiyyət strukturlarında zərərsizləşdirilib:** "Bunlar, sadəcə olaraq, son akkordlardır. Həmin şəxslərdən çoxlarının hakimiyyətdən uzaqlaşdırılması və həbs olunması yönündə konkret olaraq prokurorluğa tapşırıqlar verilib. Bu yöndə araşdırmalar gedirdi. O baxımdan inanmıram ki, indiki şəraitdə Fətullah Gülənin bu səviyyədə Türkiyəyə təsir etmək imkanları olsun. Ümumiyyətlə, Fətullah Gülən şəbəkəsini Türkiyə üçün böyük təhlükə saymıram".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016



# Kağız toplar

Zamin HACI
zaminhaci@gmail.com

**Bir dəfə Yasamalda çoxqatlı bina elə tikinti zamanı gil evcik kimi dağıldı, altında 25 nəfər yazıq gənc fəhləni dəfn elədi. Sonra tikintinin yiyəsi qaldı qıraqda, bir nəfər qoca kişini tutdular, o da türmədə öldü getdi. Keçən il Bakıda poliuretan-penoplast üzlüklə yanıb 16 nəfərin həyatını məhv edən binaların cinayət işi təxminən həmin ssenari ilə gedir. Beş-altı xırda məmur və biznesmeni tutublar, biri artıq türmədə öldü. O biriləri də təmizə çıxarmaq üçün korrupsiya maşını işə düşübdür. Çünki bu adamlar yekə məmurların günah keçisi rolunu bu bir ildə layiqincə oynayıblar, səssiz-səmirsiz kameralarında oturublar. İndi mafiya öz əsgərlərini xilas etməlidir.**

Misal üçün, yanan binaların məhkəmə prosesində daha kimsə soruşmur ki, nə üçün bu üzlüyə ekpertizada rəy verən FHN müavinlərinin adını çəkən yoxdur. Axı "bu yanan deyil, haranı istəsəniz üzləyin" rəyini o saxta sənədlərə möhürləyən, nəticədə insanların ölümünə səbəb olan Barak Obama deyil. Əvəzində təzə versiyalar qızğın şəkildə dövriyyəyə buraxılır: sən demə, binanı yandırıblar. Sən demə, bina yanmazdan qabaq qonşu evin damında yanar kağız toplar görüblər. Sən demə, başqa binada neftli kəndirlər sallayıbmışlar. Vay-vay-vay... Gör e. Yəqin xarici qara qüvvələrin əməlidir. Tfu sizin üzünüzə! Alçaqlar. Respublikamızın müstəqil inkişafını gözü götürməyən satqınlar.

Sən yanan kağız topları deyirsən, ola bilər bu əməldə göydən gələn meteorit və kometaların da rolu olsun. Bəlkə keçən il 19 mayda kometin quyruğu Azadlıq prospektindən sivişərək binanı yandırmışdır. Təzəlikcə uşağı apardım, "Buz dövrü" multikinin 5-ci hissəsinə baxdıq. Təxminən buna bənzər bir ssenari idi. Sincab qozanı sındırmaq üçün kosmosa uçub planetləri bir-birinə vurdu, Günəş sistemi yarandı. Bizim məhkəmə-hüquq sistemindəki işləklərdən babat animasiya ssenariləri çıxartmaq olar. İşləyən yoxdur. İncəsənət universitetləri, rəssam emalatxanaları yaltaqlıqdan oyansalar yaxşı olardı.

Təzəlikcə Britaniyanın "Deyli Meyl" qəzeti də ekspertləri danışdırıb dünyada içməli suyun durumunu öyrənmişdi. Orda ekspertlər bizim Bakının suyu haqda da ağızlarına gələni söyləmişdi. Deyirdilər Bakının suyu nəinki içməyə yararlıdır, bu su ilə heç diş də sürtmək olmaz. Bundan sonra su idarəsinin rəhbərliyi tam heyətlə istefa verdi.

Zarafat edirəm, qorxmayın, hamısı cağbacağ yerindədir, su təsərrüfatımızı şərəflə idarə etməkdədirlər. Örnək üçün, elə dünən mənim gözümün qabağında bir deşik boruya taxta paz çaldılar, axan suyun qabağı alındı. Bax, elə su idarəsinin beynəlxalq ekspertlərə cavabı da bu məzmunda idi. Dedilər ki, bizim su ən təmiz sudur, heç bulaqda beləsi yoxdur, sadəcə, evlərə gedən borular bir az köhnəlibdir, orda çirk-zad qarışır.

Elə bil evlərə gedən borular Dəmir Yol İdarəsinin balansında imiş. Sanki elə həmin ara xətlərinin və məhlədaxili anbarların yenidən qurulması üçün 2000-ci illərin əvvəlində Dünya Bankından 150 milyon dolları Sərkisyanla Poqosyan alıb yeyiblər, üstündən də su içiblər. Bəlkə indiki su idarəsi şefinin yadında qalmayıb, amma mən yadına salıram: o kreditləri alıb başına daş salan adam sonra deputatxanada spikerə çevrildi. Suyun sehirli təsiri belədir! İndi siz də borulara çoxlu paz çalın, bəlkə baş nazir oldunuz, kim bilir?

Deyəsən, keçmiş sovet lideri Xruşşovun fikridir: "Siyasətçilik çay axmayan yerdə körpü salmaq vədiylə camaatı özünə işlətməkdir". Bizim dövlət siyasəti tam bu üsulla gedir, yağ kimi də işləyir. Bina yanmayıb, yandırıblar. Su çirkli deyil, boru çirklidir. Uşaq savadlıdır, anası doğanda travmalı olub. İş yoxdur, soğan əkin. Soğan yoxdur, bir-birinizin ətini yeyin. Bir-birinizi tapa bilməsəniz xarici düşmənlər ki, var. Kişinin düşməni olar.

Mən indi başa düşürəm hökumət qəzetləri niyə məhv edib. Axı binanın damında da yumru kağız topası görmüşdülər. Ay sizi...

# "Türkiyə bütün hallarda proseslərdən güclü çıxacaq"

**15 iyulda Türkiyədə baş verənlər Azərbaycanda da narahatlıqla izlənildi. Bir millətin ikinci dövlətində yaşanan ağrılı olayların daha böyük faciələrə səbəb olmaması təbii ki, cəmiyyətimizin hər bir sağlam düşüncəli nümayəndəsinin əsas arzusu və istəyidir.**

Ankara və İstanbulda xalq və ordu hissələrinin üz-üzə qaldığı saatlarda Azərbaycandakı Türkiyə səfirliyinin qarşısına da toplaşanlar az olmadı. Hətta səfirin ziyarətçilərdən evlərinə dağılışmağı xahiş etməsindən sonra da insanlar proseslərin nə ilə bitəcəyini məhz bu məkanda gözləməyi, bu jestlə qardaş Türkiyə dövlətinə dəstək verməyi üstün saydılar. Yeri gəlmişkən, siyasi partiya təmsilçilərindən ilk olaraq səfirliyin qarşısına Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı yetişmişdi. Bu barədə facebook-da yayılmış videodan görünür ki, tərəfdarları ilə birlikdə səfirliyin binası önünə çıxan N.Pənahlı səfir İsmayıl Alper Coşkunun çıxışını dinləyir. Ancaq diqqətçəkən və təəccüblüsü budur ki, nə həmin gecə, nə də ondan sonrakı günlərdə Azərbaycan müxalifətinin çox azsaylı təmsilçiləri Türkiyədə baş verənlərlə əlaqədar, sadəcə, sosial şəbəkədə və mətbuatda fikir bildirməklə kifayətləndilər.

**Azərbaycan Respublikasının keçmiş baş naziri və Xalq Partiyasının sədri Pənah Hüseyn isə "Yeni Müsavat" vasitəsilə Türkiyə olaylarını operativ dəyərləndirib.** O, "Türkiyədə hərbi çevriliş cəhdinin xalqın meydanlarda ifadə olunan demokratik müqaviməti nəticəsində qarşısının alınması təkcə Türkiyə və türk milləti üçün deyil, dünyadakı bütün türklər və müsəlman sivilizasiyası üçün önəmli hadisədir"- deyib. **P.Hüseyn bildirib ki, əgər Türkiyə bu olaylarda itkilərə məruz qalsaydı, Azərbaycan da itirəcəkdi:** "Odur ki, 15- 16 iyul hadisələrində müqavimət qurbanları yalnız Türkiyə uğrunda deyil, bütün türk və müsəlman dünyası, Azərbaycan üçün şəhid oldular".

**Müxalifətin digər kəsiminin loyal yanaşması barədə sualımıza cavab olaraq KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, hadisələr birmənalı olmadığı üçün baş verənlərə də birmənalı münasibət yoxdur:** "Təbii ki, bu, Türkiyənin daxili işləridir. Hətta bizim Türkiyənin Bakıdakı səfirliyinə göndərdiyimiz başsağlıqlarına da indiki böyükelçi etinasız qalır. Hansı ki, özündən əvvəlkilər belə deyildilər. Bu da onun məsələlərə baxışıdır. Ona görə də mən hesab etmirəm ki, Azərbaycan siyasi müxalifətinin rəy bildirməsinin Türkiyədəki hər hansı proseslərə təsiri, önəmi var və onlar buna önəm verəcəklər".

**M.Mirəlioğlu "Yeni Müsavat"n sorğusuna cavabında qeyd etdi ki, kimin nə deməsindən asılı olmayaraq, Türkiyə bütün hallarda proseslərdən güclü çıxacaq:** "Ancaq bəzi məsələlər şübhələri



**Mirmahmud Mirəlioğlu:** "Hesab etmirəm ki, Azərbaycan siyasi müxalifətinin rəy bildirməsinin Türkiyədəki hər hansı proseslərə təsiri var və onlar buna önəm verəcəklər"



**Fazil Mustafa:** "Biz çalışmalıyıq ki, mülahizələrimizdə yanlışlığa yol verməyək"

artırır. Məsələn, ildırım sürəti ilə - hadisələrin üstündən sutka keçməmiş 3 minə yaxın prokuror, hüquq müdafiəçisi, yaxud vəkil həbs olunur. Bu siyahı necə tərtib olundu? Yaxud həbs olunanların sayı 6 minə yaxındır. Siyasi müxalifət dəstək verib, bu, sırf onların daxili işidir. Amma bu gün tutulan generalların hamısı onların 2014-cü ilin 17 dekabrındakı məşhur əməliyyatı zamanı təyin etdikləri şəxslərdir. Yəni Abdulla Gülün və Rəcəb Tayyib Ərdoğanın təyin etdikləri generallardır. Ona görə də xeyli şübhələr var. Hesab edirəm ki, bu, onların özlərinin də dediyi kimi, çox unikal bir ssenaridir, teatrlaşdırılmış bir məsələdir. Amma hələ son nöqtəsi qoyulmayıb. Bütün hallarda Türkiyə bu məsələlərdən qalib çıxacaq. Çünki Türkiyə Cümhuriyyəti belə hadisələri çox görüb".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa da əməkdaşımıza açıqlamasında Türkiyənin proseslərdən qalib çıxacağını bildirdi:** "Bu hadisəyə Türkiyədə "çibanın deşilməsi" hadisəsi kimi baxılmalıdır. Türkiyə iqtidarı kimisə qane edə bilər. Yaxud başqası düşünə bilər ki, fərqli bir hakimiyyət olmalıdır, fərqli bir mövqe ifadə olunmalıdır. Bunlar hamısı anlaşılandır. Amma hər hansı bir şəkildə hərbi çevriliş yolu ilə hakimiyyət dəyişməsi Türkiyənin demək olar ki, 30-40 il geri düşməsi, zəifləməsi deməkdir. Bir çoxları o düşüncədədir ki, elə bil hələ də Atatürk hakimiyyətdədir və Atatürk bu günə qədər də hakimiyyətdə qalmalıdır. Türkiyədə dəyişən mühiti hələ də böyük əksəriyyət anlamaq gücündə deyil. Bəziləri tutuquşu kimi təkrarlayır ki, Türkiyədə dünyəvi dövlət yoxa çıxır, islamçı dövlət qurulur. Son hadisələr onu göstərdi ki, türk insanı, Türkiyə əhalisi hərbi çevrilişə qarşı mövqe, direniş ortaya qoyduğu kimi, hansısa bir şəriət dövləti, islam dövləti adı ilə hansısa bir qurumun olmasına da eyni cür direniş göstərəcək". **F.Mustafa əlavə etdi ki, Türkiyəni anlayan insanların çoxu bunu bilir. Deputatın sözlərinə görə, hakimiyyət başında İslam dəyərlərinə bağlı insanların olmasına təbii ki, üstünlük verirlər:** "Amma hətta dindar kəsimin içində böyük əksəriyyət Türkiyənin məhz demokratik dövlət olmasına üstünlük verir. Çünki İran təcrübəsinə, ərəb ölkələrinə baxırlar və aydın görürlər ki, Türkiyənin başqa quruluşda olması real deyil, mümkün də deyil. Ona görə də Atatürk modelli bir dövlət Türkiyədə hər bir zaman, hətta kommunist hakimiyyəti də olsa, qatı milliyyətçi, ya İslam dəyərlərinin daşıyıcısı da olsa, dəyişməyəcək. Odur ki, sadəcə, bilgisizlikdən, cahillikdən deyirlər ki, sanki Türkiyə hər şey uçuruma gedir". **Deputat qeyd etdi ki, xalqın da iradəsinə qarşı bir saygısızlıq var:** "Sanki Azərbaycandan xalq daha yaxşı görür ki, hakimiyyətdə kim olmalıdır. Ona görə də mən o fikirdəyəm ki, Türkiyədə kimliyindən asılı olmayaraq, davranışından, üslubundan xoşumuz gəldi, ya gəlmədi, türk xalqının özünün seçimi var, o seçimə hörmət etmək lazımdır. Bəzən demokratiya uğrunda mübarizə apardığını iddia edən adamlar görürsən ki, diktatura arzulayır, bir hərbçinin hakimiyyətə gəlməsinə sevinir, istəyir ki, Türkiyədə hakimiyyət dəyişikliyi bu yolla olsun, seçki yolu ilə yox. Belə məsələlərdə Azərbaycanda düşüncə yanlışlığının olduğunu, Türkiyə haqqında təsəvvürlərin düzgün olmadığını müşahidə edirik. O baxımdan, hərbi çevrilişin baş tutmaması Türkiyənin yenidən dirçəlişidir. Sabah Ərdoğan gedər, yerinə başqası, milliyyətçi, ya İslam dəyərlərini qabardan insan gələr, fərq etməz. Amma 80-ci ilin darbəsindən sonra Türkiyənin iqtisadiyyatına və siyasi mövqeyinə vurulan zərbə o dərəcədə yüksək idi ki, hələ bu günə qədər onun fəsadlarını ortadan qaldıra bilmirlər. Təsəvvür edin ki, bir çevrilişdən sonra nə baş verdi: Yunanıstanın NATO-ya qəbul olunması həll olundu. Ona qədər Yunanıstan NATO-ya girə bilmirdi. Ancaq ondan sonra Yunanıstan Türkiyə ilə bərabərləşdirildi, özü də hərbçilərin hesabına. Xaricdən dəstəklənən çevriliş oldu və bunu həyata keçirdilər. Əvvəllər qınayırdılar ki, Türkiyə hakimiyyəti PKK-ya qarşı niyə yumşaq davranır? Bu gün PKK-nın bütün ocaqlarını darmadağın edirlər. Hərbçilərin hakimiyyətə gəlməsi o demək deyildi ki, PKK ilə bağlı daha sərt siyasət izləməcəkdi. Bəlkə də həmin qüvvələr Ərdoğan hakimiyyətinin barışmaz mövqe tutduğuna görə bu addımı atırdılar. Ona görə də bu məsələlərdə daha əqli-səlib düşünməyimiz lazımdır. Türkiyə demokratiyasına Azərbaycan mühitindən dəstək verilməsi, bunun anlayışla qarşılanması bizim özümüzün xeyrinədir. Çünki Türkiyə həm də bizim üçün bir örnək, parlamentar demokratiyanın parladığı bir dövlətdir. Biz çalışmalıyıq ki, Türkiyə məsələsində mülahizələrimizdə yanlışlığa yol verməyək".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 155(6476) 19 iyul 2016

# Status-kvo əvvəlki qorxulu fazaya qayıdır




# Qiyam, çevriliş cəhdləri dalğası və Qarabağ - yeni təhlükə

## Türkiyə və işğalçı Ermənistandakı son dramatik hadisələr konfliktin həllinə yönəlik səyləri sıfırlaya, müharibə riskini artıra bilər; Putinin adamından Ermənistanda siyasi terror xəbərdarlığı gəldi...

**Türkiyədəki məşum çevriliş olayı bölgədə Azərbaycana da təsirsiz ötüşməyəcək yeni bir situasiya yaradıb. Qardaş ölkənin güc və potensialına zərbə olan bu hadisə və onun nəticələri sözsüz ki, hələ bir müddət Ankaranın başını özünə qatacaq. Türkiyə siyasi isteblişmentini daha çox daxili problemlərin həllinə, bir az da xarici aləmlə zədələnmiş əlaqələrin bərpasına cəlb edəcək.**

Deməк, Azərbaycan, Qarabağ məsələsi qardaş ölkə üçün əvvəlki aktuallıqda olmayacaq. Hər halda, müəyyən müddət belə olacaq. Doğru, rəsmi Ankaranın Qarabağ məsələsində mövqeyi yerində qalır. Ancaq o da var ki, apreldəki 4 günlük müharibədən sonra münaqişənin həlli ilə bağlı yeni və ümidverici bir ab-hava, diplomatik fəallıq özünü göstərməyə başlamışdı və prosesə Türkiyənin də fəal şəkildə, hətta faktiki, Minsk Qrupunun 4-cü həmsədri qismində cəlb olunması gözlənilirdi.

Əlalxüsus, Ankara-Moskva əlaqələri normallaşandan sonra belə gözləntilər xeyli artmışdı və bunu rusiyalı rəsmilər və ekspert dairələri də açıq etiraf eləməkdə, paralel surətdə Ermənistanda bu perspektivdən dolayı təlaş yaşanmaqda idi. Rusiya XİN başçısı Sergey Lavrovun İrəvana son səfəri zamanı isə qapalı danışıqlarda Türkiyə amilinin də diqqətdə olması haqda Rusiya KİV-i sensasion informasiyalar yaymışdı. Ardınca Kremlin danışan dili sayılan və həmişə anti-Türkiyə bəyanatları ilə tanınan Vladimir Jirinovski Azərbaycan telekanallarından birinə müsahibəsində "Türkiyə və Rusiya səylərini birləşdirsə, kürd və erməni məsələləri öz-özünə həll olunacaq, Qarabağ problemi də həll ediləcək, Azərbaycan bundan razı qalacaq" demişdi.

Öz növbəsində Rusiya XİN rəsmisi Mariya Zaxarova Türkiyəni nəzərdə tutaraq, Qarabağ məsələsində başqa - ikitərəfli formatların da mümkünlüyünü dilə gətirməklə ermənilərin təlaşını gücləndirmişdi.

****

Dünən - iyulun 18-də isə Minsk Qrupu həmsədrlərinin fəaliyyətdə olduqları müddətdə ilk dəfə Türkiyəyə səfəri gözlənilirdi. Belə ki, XİN başçısı Mövlud Çavuşoğlu ötən həftə Bakıda olarkən demişdi ki, vasitəçilərin 18 iyula nəzərdə tutulan Ankara səfərində Türkiyə rəhbərliyi Qarabağ danışıqları ilə bağlı məlumatlandırılacaq. Çavuşoğlunun son Bakı səfəri də elə Qarabağla bağlı məlumatlar toplamaq idi. Fəqət hərbi çevriliş cəhdi planları dəyişdi.

İş də ondadır ki, həmsədrlərin Türkiyəyə planlaşdırılan səfəri nizamlama prosesinin daha məsuliyyətli bir fazaya girməsi ilə birbaşa bağlı idi. İstisna edilmirdi ki, Türkiyə ilə Qarabağ məsələsi ətrafında həm də elə bir kritik detalın müzakirəsi gözlənilir ki, bundan Azərbaycan məmnun qalmaya bilər. Söhbət böyük ehtimalla, Ermənistanla sərhədlərin açılması kimi rəsmi Bakının sərt yanaşdığı bir mövzudan və indiki həssas dönəmdə artan müharibə riskini minimuma endirmək üçün qardaş ölkənin Azərbaycana təsir potensialını hərəkətə gətirməkdən gedir.

***

Şübhəsiz ki, Minsk Qrupu həmsədrlərinin Ankaraya planlaşdırılan səfəri Qarabağ məsələsində Türkiyənin roluna və təsirinə verilən önəmin təzahürü, onun vazkeçilməz oyunçu kimi konfliktin nizamlanmasında mühüm rol oynadığının etirafı, məsələdə Türkiyə ilə hesablaşmağın, onun maraqlarını nəzərə almağın zəruriliyini göstərən gerçəklikdir.

Bu yerdə xatırladaq ki, Türkiyə Minsk Qrupu yaradılanadək ABŞ və Rusiya ilə birgə Qarabağ məsələsində vasitəçi üçlüyə daxil olub və həmin vasitəçilik yetərincə uğurlu olub. Əfsus ki, sonradan qardaş ölkəni ermənipərəst Fransa əvəzlədi və bununla da vasitəçilikdə balans pozuldu, Azərbaycan faktiki şəkildə təklənmiş oldu, Bakıya təklif olunan ədalətsiz sülh təkliflərinin önü açıldı.

Bu xüsusda qardaş ölkənin regionda, dünyada nüfuz və imicinə vurulan istənilən zərbə əlbəttə ki, onun Qarabağ məsələsindəki roluna da zərbə anlamına gəlir, bu rolu və təsiri zəiflədir. Demək, altını çəkən həm də Azərbaycan və onun köklü maraqlarıdır, Qarabağ məsələsidir.

***

Qarabağ danışıqlarının yeni raunduna başqa bir zərbə Ermənistandakı daxili durumdan qaynaqlanır. Belə ki, qonşu ölkədə Sərkisyan rejiminə qarşı etirazlar yeni mərhələyə keçib, hətta hakimiyyətə qarşı silahlı qiyam cəhdləri özünü göstərməkdədir. Hələ rəsmi İrəvan Qarabağ məsələsində heç bir güzəştə imza atmayıb, belə gərginlik var...

**"İrəvandakı hadisələr Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kompromis imkanlarını azaldacaq". Bu sözləri rusiyalı politoloq, prezident Vladimir Putinin etibarlı şəxslərindən biri sayılan Sergey Markov radikal müxalifət qüvvələrinin İrəvandakı hərbi qiyamını şərh edərkən deyib (report). Onun sözlərinə görə, bu olaylar Serj Sərksiyanın prezident postundan uzaqlaşdırılması ilə bağlı qorxusunu əhəmiyyətli dərəcədə artıracaq.**

"Baş verənlər iki şeydən xəbər verir. Birincisi, Ermənistanın hazırkı prezidenti Sərksiyanla bağlı geniş narazılıq, o cümlədən onu prezident postundan salmaq niyyətində olan təşkilatlanmış qruplar var. İkincisi, Ermənistan siyasətində zorakılıq səviyyəsi çox yüksəkdir. Əvvəllər də buna bənzər faktlar olub. Ermənistan maliyyə naziri Levon Barxudaryanın tribunada çıxışı zamanı terrorçuların içəri daxil olub Ermənistan parlamentini, oraya toplaşan deputatları atəşə tutulmasını xatırlamaq kifayətdir *(1999-cu ildə parlamentin gülləbaran edilməsi nəzərdə tutulur-red.)* Başqa sözlə, Ermənistanda siyasi sferada zorakılıq səviyyəsi çox yüksəkdir", - deyə politoloq əlavə edib.

Yəni Markov faktiki şəkildə işğalçı ölkədə yeni siyasi terror aktını istisna eləməyib.

***

Putinin müşavirinin də açıqlamalarından belə qənaət hasil olur ki, Azərbaycana qonşu iki ölkədə siyasi qiyam və hərbi çevriliş cəhdləri yekun etibarilə Qarabağ sülh danışıqlarına da zərbə vurmaqla yanaşı, yeni müharibə ehtimalını artıra bilər. Çünki dəfələrlə vurğuladığımız kimi, istənilən sülhün alternativi müharibədir. Aprel döyüşləri isə göstərdi ki, Qarabağ məsələsi ətrafında status-kvo uzun müddət indiki kimi qala bilməz.

❑ **Analìtìk xìdmət**

# Rusiya Qarabağda nə planlaşdırır və Azərbaycan nə etməlidir?



**Hüseynbala SƏLİMOV**

**İlk baxışda belə təəssürat yarana bilər ki, artıq Dağlıq Qarabağ mövzusunda aktiv faza səngiyib. Həqiqətən də bugünlərdə Minsk Qrupunun həmsədrlərinin Qarabağ problemini müzakirə etmək üçün ilk dəfə Ankaraya yollanacağı haqda çox maraqlı xəbəri nəzərə almasaq, xarici işlər naziri S. Lavrovun Ermənistana və Azərbaycana səfərindən sonra indi diqqətlər daha çox prezidentlərin yaxın vaxtlara planlaşdırılan görüşünə yönəlib.**

Bəri başdan deyək ki, görüşün hələ də harada baş tutacağı bütün dəqiqliyi ilə məlum deyil. Daha çox Fransanın adı hallansa da, hətta bəzi mənbələr məsələnin həll olunduğunu deyərək birmənalı şəkildə məhz bu ölkənin adını xəbərləsələr də, hər bir an ünvan dəyişikliyi baş verə və görüş başqa yerdə də baş tuta bilər...

Fəqət hazırda danışıqlar prosesi elə intensiv xarakter alıb ki, prezidentərin görüşü ilə bağlı hər hansı bir narahatlıq yaşanmır və bu gün üçün tamam şübhəsizdi ki, həmsədrlər onları bir daha görüşdürmək üçün elə də çətinlik çəkməyəcək.

Fəqət suallar adama rahatlıq vermir. Nəticə nə olacaq? İrəliləyiş olacaqmı? Bilmirik... Bu gün üçün bəlli olanı budur ki, Rusiya çox canfəşanlıq edir. Elə bizi də şübhələndirən məhz budur. Nə baş verir? Həqiqətənmi Rusiya heç nə ummadan, heç bir izafi təmənna istəmədən problemi birdəfəlik çözmək istəyir?

Adam heç buna inana bilmir. Bəli, nə deyirsinizsə, deyin, amma mən buna qətiyyən inana bilmirəm. İnana bilmirəm ki, Rusiya bu məsələdə tamamilə təmənnasız olsun və indiyə qədər ona Azərbaycanı və Ermənistanı ətrafında saxlamağa, hətta bu iki ölkənin siyasətini bu və ya digər dərəcədə idarə etməyə imkan verən əsas siyasi "rıcaq"ı - Dağlıq Qarabağı belə asanlıqla əldən vermiş olsun!..

Hazırda Ermənistan rayonların boşaldılmasının müqabilində Dağlıq Qarabağ üçün "etibarlı təhlükəsizlik təminatları" istəyir. Bir tərəfdən belə bir təsəvvür yaranır ki, məhz Dağlıq Qarabağ üçün nəzərdə tutulan "möhkəm aralıq status" bu təminatı verir. Amma Ermənistan bununla bağlı çox tərəddüd edir. Həm də sual yaranır ki, bəs bu halda Rusiyanın qazancı nə olacaq? Elə bu səbəbdən də düşünürük ki, məsələ sülhməramlı qüvvələr olmadan keçinməyəcək. Bəli, bölgəyə ayrıcı qüvvə kimi rusiyalı sülhməramlıların gətirilməsi həm Ermənistanı, həm də Rusiyanı qane edərdi. Əks təqdirdə, Rusiya bu qədər fəallıq nümayiş etdirməzdi. Ən azı ona görə ki, böyük siyasətdə alturizmə elə də çox təsadüf olunmur, ələlxüsus da, bunu Rusiyanın siyasətində gözləmək tamam sadəlövhlük olardı ...

Belə olan təqdirdə Azərbaycan nə edə bilər? Hazırda Rusiya da, bütünlüklə Minsk Qrupu da sanki Türkiyəni ilk dəfədir ki, özləri üçün kəşf ediblər. Türkiyəyə marağın səbəbi aydındır. Həmsədrlər də, Rusiya da Türkiyənin Azərbaycana olan təsirindən yararlanmaq istəyirlər. Təbii ki, Türkiyənin prosesə cəlb olunması eləcə də kommunikasiyaların açılması və blokadanın götürülməsilə bağlıdır.

Ağla gələn ilk şey bu olur ki, Azərbaycan prosesdə baş vermiş bu dəyişiklikdən maksimum yararlanmağa çalışmalıdır. Əvvəllər Türkiyəni prosesdən tamam kənarda saxlamağa çalışanlar bu gün onsuz keçinməyin mümkün olmadığını dərk edirlərsə, Azərbaycan bundan niyə yararlanmasın?

Düşünürük ki, sülhməramlıların bölgəyə gəlişi qaçılmaz olarsa, onda rəsmi Bakı onların tərkibinin beynəlmiləl olmasını (bu, hələ 90-cı illərdə keçirilən Budapeşt sammitində qərara alınmışdı!) və Türkiyənin də mütləq bu prosesdə iştirak etməsini təkid etməli və buna nail olmalıdır.

O üzdən ki, rusiyalı sülhməramlıları biz Gürcüstandakı münaqişələrin timsalında yetərincə görmüşük - orada Rusiya "sülhməramlıları" faktiki olaraq Abxaziyanın və Cənubi Osetiyanın sərhəd qoşunları funksiyasını yerinə yetirirlər. Azərbaycan heç bir halda bu ssenarini özündə, özünün ərazisində təkrar etməməlidir...

O ki qaldı Türkiyəyə, təbii ki, o, Azərbaycanın cəhdlərini heç bir halda cavabsız qoymayacaq. Əsas odur ki, Türkiyənin özündə sabitlik və əmin -amanlıq olsun. Ötən həftənin sonlarında baş vermiş qarışıqlıq və hərbi çevriliş cəhdi Azərbaycanda da böyük üzüntü və narahatlıqla qarşılandı, insanlar sözün əsl mənasında təlaşlı anlar yaşadılar...

Rəsmi Bakının Rusiya ilə ilgili siyasətinə gəldikdə isə bu ölkə ilə o qədər ehtiyatla davranırlar ki, adam həm şübhələnir, həm də bunu seyr etməkdən lap dilxor olur.

Bəlkə də inanmazsınız, amma Ukrayna prezidentinin səfəri ərəfəsində bizim rəsmiləri ən çox narahat edən bu idi ki, görən, prezident P.Poroşenko burada Rusiya əleyhinə siyasi şüarlar və yaxud bəyanatlar səsləndirməyəcək ki?..

Burada yadıma M.Saakaşvilinin Bakı səfərləri düşdü. Bəli, Mixeil qardaş da o vaxt Bakı rəsmilərinə çox həyəcanlı dəqiqələr yaşatmışdı...

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016

**Türkiyədə iyulun 15-də başlayan gərginlik davam edir. İyulun 17-də İstanbulda Sabiha Gökçen Hava Limanında, Konyada yerləşən 3-cü Qırıcı Hərbi Hava bazasında polis əməliyyat keçirərək hərbçiləri həbs edib. Daha bir neçə hərbi hissədə, o cümlədən İzmirdə jandarma qərargahı, Malatya hərbi hava bazasında hələ də tam nəzarət bərpa olunmayıb. İstanbul Levent bölgəsində Hərbi Akademiyanın yaşayış binaları polis mühasirəsindədir.**



# Ərdoğan Pentaqondan şübhələnib- "amerikalılar" ordudan təmizlənir

## Hakimiyyət ikinci qiyam dalğasını gözləyir, Vaşinqton və Ankara arasında iplər sürətlə qopur






Eyni zamanda son bilgilərə görə, qiyamçıların istifadə etdiyi Akıncı Hərbi Hava bazasının yenidən ələ keçirilməməsi üçün hökumət qırıcıları uçuş zolağını bombalayaraq yararsız hala gətirib.

Bəzi məlumatlara görə, gündüz saatlarına qədər 6 hərbi döyüş təyyarəsi, 42 vertolyot və bir hərbi gəmi təyinat yerində deyil. Bundan başqa, ölkənin bir çox bölgələrində hərbi hissələrin bağlandığı və polisin içəri girə bilmədiyi haqda bilgilər var. Hökumət rəsmiləri isə gərginliyin hələ bir həftə davam edəcəyini bildirirlər. Bu səbəbdən də əhali meydanlara çağırılır. Çevriliş cəhdinin ikinci dalğasının olacağı haqda kəşfiyyatın məlumat əldə etməsi ilə bağlı MİT rəhbərliyi tərəfindən açıqlama yayılıb.

Həbslər isə davam edir. İyulun 17-də axşama olan məlumata görə, ölkədə 70 general və admiral həbs olunub. Onların içərisində ən yüksək rütbəli komandir, 2-ci ordu komandanı (cənub-şərq bölgəsində) ordu generalı Adem Huduti də var. Hərbi Hava Qüvvələrinin keçmiş komandanı və Ali Hərbi Şuranın üzvü, ordu generalı Akın Öztürk də daxil olmaqla, çoxlu sayda ordu komandanları həbs olunanlar arasındadır.

Həbs olunanlar içərisində sürpriz şəxslər də var. Məsələn, İncirlik Hərbi Hava bazasının komandiri general-mayor Bekir Ercan da bazar günü həbs olunub. Bir gün əvvəl bazanın qərargah rəisi həbs olunmuşdu və eyni zamanda hökumət bazaya verilən elektriki kəsdiyi üçün istifadəsiz hala gəlmişdi. Ancaq 17-si səhər Vaşinqton rəsmilərin bazanın yenidən fəaliyyətini bərpa etdiyini bəyan edib.

Ankarada həbs olunanlar arasında prezidentin baş hərbi köməkçisi, polkovnik Ali Yazıçı da var. Yazıçının qiyam zamanı Ankarada olduğu bildirilir. Daha bir sürpriz şəxs eks-prezident Abdulla Gülün köməkçisi olmuş və hazırda xüsusi təyinatlı polka rəhbərlik edən general İsmayıl Güneser olub.

Bundan başqa, Ankarada 24-ü rəis olmaqla 149 polis həbs olunub, Ərzurumda isə 15-i zabit olmaqla 79 polis işdən azad edilib. Ali və Konstitusiya məhkəmələrində də həbslər olub. Konstitusiya Məhkəməsinin üzvü Alparslan Altan, Erdal Tezcan və daha bir neçə hakim həbs olunub. Bütün ölkə boyu polisin axtarış-əməliyyat tədbirləri davam etdiyi üçün siyahı hər dəqiqə artır. Ədliyyə naziri Bəkir Bozdağ artıq 6 min nəfərin həbs olunduğunu bildirib. Eyni zamanda həbslərin hələ davam edəcəyini də əlavə edib.

Türkiyə xalqı isə küçələrədir. Milliyyətçilər, dindarlar, solçular, bütün qrupların təmsilçiləri meydanlara çıxaraq çevrilişə etirazını bildirir. Ancaq olayların davam etməsi və rəsmilərin bəyanatı göstərir ki, təhlükə hələ də qalır. Lakin ehtimal olunan təhlükənin nə olması, ikinci bir qiyam, yoxsa başqa bir hadisə, o haqda bilgi yoxdur.

Yeri gəlmişkən, iyulun 17-də hökumətin qiyamın təşkilatçısı olaraq ittiham etdiyi ruhani Fətullah Gülən ABŞ-dakı iqamətgahında jurnalistlər üçün mətbuat konfransı keçirib. F.Gülən çevrilişlə heç bir əlaqəsinin olmadığını bildirib. Ancaq təbii ki, bütün şübhələr onun üzərindədir və qiyamdan dərhal sonra prezident Ərdoğan ABŞ-a müraciət edərək növbəti dəfə Gülənin geri verilməsini tələb edib. ABŞ dövlət katibi Con Kerri isə dərhal cavab verərək Gülənin verilməsi üçün Türkiyədən tələb sənədlərini almadıqlarını bildirib. Kerri deyib ki, əsaslandırılmış sənədlər olarsa bu məsələyə baxılacaq.

Ancaq Ankaranın hadisədən sonra İncirlik bazasını bağlaması, işıqları söndürməsi və dövlət rəsmilərinin Amerikanı ittiham edən işarələr verməsi narahatlığın bir ucunu Vaşinqtona bağlayır. Doğrudanmı, bu çevrilişi illər uzunu ordu ilə rəqabətdə olan və 20 ilə yaxındır Amerikada yaşayan bir ruhani lider edib? Bu saata qədər 50-dən çoxu general olmaqla, 290 hərbçi Gülənin adamları olub?

Məsələ ondadır ki, indi Türkiyə rəsmiləri açıq deməsələr də, bəzi ekspert və yazarlar qiyamın arxasında xarici güclərə, o cümlədən Amerikaya işarə edirlər. Söhbət ABŞ dövlət rəhbərliyindən deyil, Pentaqondakı generallardan gedir. Hələ bu ilin martında amerikalı politoloq və keçmiş diplomatlar Türkiyədə hərbi çevriliş olacağı ilə bağlı yazı yazmışdılar. İndi həmin yazılar daha çox gündəmə gəlir. Yeri gəlmişkən, ABŞ konqresmeni Bred Şerman twitter hesabında "Türkiyəyə hərbi çevrilişdən sonra real demokratiya gələcək, Ərdoğan diktaturası sona çatacaq" deyə yazıb. Yəni çevriliş mövzusu amerikalı siyasətçilər üçün gözlənilməz olmayıb. Hətta arzuolunan olub.

Doğrudanmı, F.Gülən o qədər güclü bir təşkilat qurub ki, Türkiyə ordusunda onlarla generalı ələ ala bilib? Və bu generallar öz iradələri ilə dövlətə qarşı hərbi çevriliş hazırlayıb, onu həyata keçirməyə çalışıblar? Bu iddianın özü belə şübhəlidir, çünki ordu hər zaman dünyəviliyin dayağı olub və Gülən hərəkatına qarşı əsas cəbhəni təşkil edib. İndi necə oldu ki, birdən-birə belə bir ordunun 100-dək generalı illərlə mübarizə apardığı dini hərəkatın üzvü olsun? Daha bir ilginc məqam, qiyam baş verdiyi gecə telekanallara bağlanaraq hökumətə dəstək verən generallardan bir çoxu sabahı gün həbs olundu. Bu generalların həqiqətən çevrilişə dəstək verdiyi, yalnız uğursuzluğa düçar olduqlarını bildikdən sonra hökuməti dəstəklədikləri, yoxsa günahsız olaraq həbs olunduqları hələlik bilinmir.

Bu qiyamdan dərhal sonra ABŞ-ı ittiham edən yazıların və çıxışların gündəmə gəlməsi iki məqama görə maraq doğurur. Birincisi, F.Gülən ABŞ-da yaşayır, ikincisi isə Türkiyə ordusunun Pentaqonla çox yaxın əlaqələrinin olmasıdır. Bura son illərdə Türkiyə hakimiyyəti ilə Vaşinqton arasında soyuyan əlaqələri, xüsusən də Pentaqonun Ankaraya münasibətini əlavə etmək lazımdır. Pentaqon son illərdə açıq şəkildə Suriyada kürdləri silahlandırır, eyni zamanda Ankaranın tələblərinə qarşı çıxaraq kürdlərin Suriya sərhədlərinə yerləşməsinə dəstək verir. Hətta Ankaranın etirazlarına baxmayaraq, öz təmsilçisini Rojovaya - Suriyadakı kürd mərkəzinə göndərir. Bu ilin yazında ABŞ müdafiə naziri nümayişkaranə surətdə Ankaraya deyil, İncirlik bazasına gələrək Türkiyə hakimiyyətinə İŞİD-ə qarşı ciddi mübarizə çağırışı etmişdi. Hələ bir neçə ay əvvəl mediada amerikalı ekspertlərin Türkiyədə hərbi çevriliş proqnozları ilə bağlı yazılar üzə çıxanda bir çoxları bu işdə ABŞ-ın əlinin olacağını yazırdı.

Ən çox diqqət çəkən isə o idi ki, Ankara ilə münasibətlərin belə kəskin olmasının fonunda Pentaqon Türkiyə Baş Qərargahı ilə çox yaxın münasibətlərini qoruyub saxlayır, hətta inkişaf etdirirdi.

O zaman bir çox ekspertlər hesab edirdi ki, Vaşinqton Türkiyə ordusunu hökumətdən fərqli olaraq özünə yaxın müttəfiq hesab edir. Çünki ordu dünyəvidir, eyni zamanda hakimiyyətdən fərqli olaraq daha praqmatik və müəyyən mənada muxtar qurum olaraq siyasi-diplomatik məsələlərə qarışmırdı. Bundan başqa, Türkiyə ordusunda hələ də çoxlu sayda yüksək rütbəli NATO zabitləri vardı və onlar ABŞ və digər NATO ölkələri orduları ilə yaxın əlaqələrə malik idilər.

İndi isə həbslər dairəsinin sürətlə genişlənməsi onu göstərir ki, Ankara bu çevrilişin arxasında yalnız gülənçilər deyil, eyni zamanda Amerika generallarının da olduğundan şübhələnir. Ya da qiyam cəhdinin yaratdığı vəziyyətdən istifadə edərək ordu içərisindəki hökumətə qarşı olan zabitləri təmizləyir. Nəticə etibarı ilə bu prosesdə iştirak edib-etməməsindən asılı olmayaraq qiyam cəhdindən sonra başlanacaq təmizlənmə prosesində ordudakı NATO və ABŞ təsirində olan zabitlər kənarlaşdırılacaq.

Məlum olduğu kimi, "Ergenekon" hadisələrindən sonra ordunun "təmizləndiyi" deyilsə də, əslində son illərdə, xüsusən də axırıncı bir ildə cənub-şərq vilayətlərində hərbi əməliyyatların başlamasından sonra orduda hökumətə qarşı güclü müqavimət formalaşmışdı. Hakimiyyətin təzyiqlərinə baxmayaraq generalların Suriya ərazisində hərbi əməliyyatlara qatılmaması, hökumətin əksinə olaraq NATO və ABŞ-la yaxınlaşması Ankarada narazılıqla qarşılanırdı. Xüsusən də Suriya məsələsində Türkiyə ordusu açıq şəkildə hakimiyyətin bütün təzyiqlərinə baxmayaraq sərhədin o üzünə əsgər göndərilməsinə qarşı çıxdı.

Hər bir halda hökumət ordudakı "sözəbaxmaz", "amerikançı" generalları təmizləyəcək.

Ankaranın əsas narahat olduğu "B" planı nədən ibarət ola bilər? İki versiya var, birincisi, daha bir hərbi qiyam cəhdi baş verə bilər. Bu ehtimalı gücləndirən hərbi hissələrdə hələ də əməliyyatların davam etməsidir. İkinci variant isə Türkiyədə xaos və gərginliyin yaranmasıdır. Şəbəkələrdə təxribat məlumatlarının yayılması, öyrədilmiş silahlı adamların təxribatçı çağırışları. Bəzi bölgələrdə suriyalı qaçqınlara, bəzi bölgələrdə isə ələvi məhəllələrinə hücum çağırışları və kiçik cəhdlər bu təxribatın elementləridir. Buna qarşı yeganə yol isə xalqı səfərbər olaraq tutmaqdır.

Nəticə olaraq bu hadisələr Türkiyə dövlətinə zərbə vurur. Qiyamçıların kimlərdən ibarət olmasından asılı olmayaraq, bu hadisə ilə ordu əvvəlki təsir gücünü və muxtariyyətini bir qədər də itirəcək. Bunu bərpa etmək üçün uzun zaman tələb olunacaq, yaxud da ümumiyyətlə, bu mümkün olmayacaq. Davam edən həbslər ordu içərisində hazırkı hökumətə soyuq yanaşan zabitlərin böyük qisminin xaric edilməsi ilə nəticələnəcək. Hökumət ordu üzərində təsirini artıracaq və bununla ordu daxili müstəqilliyini itirəcək. Eyni zamanda Türkiyə cəmiyyəti də böyük bir travma yaşayacaq. Bəlkə də bu təxribatı hazırlayan qüvvələrin əsas məqsədi bu idi.

Bu vəziyyətdən çıxmaq, cəmiyyətdəki travmanı yüngülləşdirmək üçün hakimiyyət müxalifətlə birgə hərəkət edərək milli birlik çağırışlarını artırmalı, siyasi gərginliyə səbəb olan qərarlardan imtina etməlidir. Bu isə qarşıdakı dövrdə bilinəcək.

**M. MAQSUD**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi






# Ermənistandakı silahlı qarşıdurma - Azərbaycan üçün fürsət?

**"Aprel müharibəsi"ndən sonra Ermənistanda baş qaldıran daxili gərginlik pik nöqtəsinə qalxmaqdadır. Qarabağdakı uğursuzluqların ardınca danışıqlar masası arxasına zəif mövqe sahibi olaraq oturmağa məcbur olmuş prezident Serj Sərkisyanın əleyhidarları artıq silahlı müqavimətə start veriblər.**

İyulun 17-nə keçən gecə İrəvandakı patrul-mühafizə polkuna basqın edərək polis əməkdaşlarını girov götürən silahlıların hərəkətləri hətta dövlət çevrilişinə cəhd kimi dəyərləndirilir. Girov saxlanılan 5 nəfərin arasında Ermənistan polisinin rəis müavini Vardan Yegizaryan və İrəvan polisi rəhbərinin müavini Valeri Osipyan da var. İlkin məlumata görə, silahlılar radikal müxalifətçi Jirayr Sefilyanın azadlığa buraxılmasını tələb edir. Basqın zamanı bir polis zabiti öldürülüb, 4 nəfər isə yaralanıb.

Qeyd edək ki, "Yeni Ermənistan" və "Müəssislər parlamenti" hərəkatlarının lideri olan Jirayr Sefilyan iyunun 20-də tutulub. O, qanunsuz silah saxlamaqda ittiham olunur. İyulun 17-də silahlılardan Pavel Manukyan onunla telefon əlaqəsi saxlayıb. Jirayr Sefilyan Pavel Manukyana deyib ki, polisə hücum çəkmiş şəxslər bundan sonrakı addımlarına özləri qərar verməlidir.

Ermənistanda polis binasına hücumla əlaqədar 200 nəfər saxlanılıb. Lakin onlardan 50-si sərbəst buraxılıb.

Ermənistanda ciddi təşviş doğuran bu proseslə əlaqədar bütün hakimiyyət orqanları hərəkətə keçib. Hətta prezident də işə qarışıb və qarşı tərəflə görüşə qərar verib. Jirayr Sefilyan isə Serj Sərkisyanla görüşməyə hazır olduğunu deyib. Virtualaz.org xəbər verir ki, bunu həbsdə olan Jirayr Səfilyanla görüşdən sonra ASALA terror təşkilatının keçmiş üzvü, "Təsis parlamenti"nin üzvü Alik Yeniqomşyan deyib. Eyni zamanda "Arabo" dəstəsinin komandiri, general Manvel Yegiazaryan Ermənistan hakimiyyətinə xəbərdarlıq edib ki, ələ keçirilmiş polis binasına hücum edilməsin. **"Hakimiyyət uşaqları hücumla ələ keçirmək istəsə, bu, xalqın böyük qəzəbinə səbəb olacaq"**, - o deyib.

Jirayr Sefilyan 1967-ci ildə Livanın paytaxtı Beyrutda doğulub. Daşnaksütyun Partiyasının Livan təşkilatının fəallarından olan Jirayr Sefilyan 1990-cı ildə hərbi təlimçi kimi Ermənistana göndərilib. 1991-ci ildə Dağlıq Qarabağa gəlib və Azərbaycan torpaqlarının işğalında iştirak edib. Şuşanın işğalından sonra bu şəhərdə yaradılmış xüsusi batalyonun komandiri olub.

İstintaqın məlumatına görə, Sefilyan bir qrup şəxslə əlbir olaraq silahlı hücumlar vasitəsilə binaların, rabitə vasitələrinin və kommunikasiyaların, o cümlədən İrəvandakı teleqüllənin ələ keçirilməsini planlaşdırıb. Ancaq hesab olunur ki, əslində Jirayr Sefilyanın həbsinin səbəbləri başqadır. Aprel döyüşlərindən sonra o, Azərbaycan ordusunun təkcə təmas xəttinin şimal-şərq, Ağdərə-Tərtər istiqamətində 7 milyon kvadratmetr ərazini geri ala bildiyini demişdi. **"Yoxsa Azərbaycan yaxın vaxtlarda bizə böyük zərbə vuracaq, 2-5 aprel hadisələri hələ başlanğıc olacaq"**, - o bildirmişdi.

"Yeni Ermənistan" Partiyasının siyasi şurasının üzvü Varujan Avetisyan isə Səfilyanın həbsini onun Ermənistan iqtidarının Qarabağ danışıqlarında tutduğu mövqeyi tənqid etməsi ilə bağlayıb. **"Səfilyan iqtidarın Qarabağı təslim etmək siyasətini faş edirdi. Prezidentlərin Sankt-Peterburq görüşü ərəfəsində onu qəsdən təcrid etdilər. Bununla iqtidar torpaqları satmağa hazır olduğunu göstərib"**, - deyə Varujan Avetisyan bildirib. Ermənistanın hüquq müdafiəçisi Janna Aleksanyan da Avetisyan kimi düşünür. Onun fikrincə, Səfilyanın həbsi Qarabağ danışıqları ilə bağlıdır.

**"Səfilyanın həbsi onun Qarabağ münaqişəsinin Madrid prinsipləri əsasında nizamlanmasına qarşı barışmaz mövqeyi ilə əlaqədardır"**, - deyə "Miras" partiyasının verdiyi bəyanatında bildirilir. "Qalx ayağa, Ermənistan!" hərəkatının bəyanatında bildirilir ki, "Ermənistan hakimiyyəti Səfilyanı həbs etməklə "ərazi güzəştləri" haqqında sazişin gerçəkləşdirilməsi üçün dövlət resursundan istifadə etməyə hazır olduğunu göstərib". Erməni mətbuatının fikrincə, artıq yeni mövqelər əldə etmiş Azərbaycana sərf edən yeni status-kvonun yarandığını qeyd etmək olar.

***

Baş verənlər və bir sıra reaksiyalar onu deməyə əsas verir ki, Ermənistanda qiyamçıların səhnəyə çıxmasının əsas səbəblərindən biri Qarabağ ətrafında cərəyan edən hadisələrdir. S.Sərkisyan Rusiyanın vasitəçiliyi ilə davam edən görüşlərdən yayınmağın, irəli sürülən təkliflərdən imtinanın ona çox baha başa gəldiyini yaxşı anlayır. Odur ki, son vaxtlar "dünya Qarabağ xalqını Azərbaycanla birgə yaşamağa inandıra bilməz" kimi absurd iddialar səsləndirməklə məsuliyyəti özündən uzaqlaşdırmağa çalışır. Ancaq eyni zamanda başa düşür ki, konkret addımlar atmağın zamanı gəlib. Son zamanlaradək güzəştsiz siyasəti şəxsən təbliğ edən erməni prezident indi güzəştli sülhdən danışmağın təhlükəli olduğunu da bilir. Konkretləşdirsək, Sərksyan erməni cəmiyyəti üçün əkdiklərini biçir və indi silahlıların ona qarşı çıxması təəccüblü deyil.



**Arzu Nağıyev:** "Sərkisyanın vəziyyətindən istifadə edib ona təsir etmək Azərbaycan üçün ən optimal variant olardı"



**Elxan Şahinoğlu:** "Əslində Ermənistanda baş verənlər bizim apreldə qazandığımız uğurun təcəssümüdür"

Bəs bu situasiya Azərbaycan üçün hansı imkanlar yaradır? Qarabağın azadlığını prioritet vəzifə sayan rəsmi Bakı indiki məqamda hansısa addımlar atmalı, yoxsa işğalçı ölkədə baş verənlərin məntiqi sonluğunu gözləməlidir? Yeri gəlmişkən, Ermənistan Qarabağı o zaman işğal etdi ki, onda Azərbaycanda daxili gərginlik hökm sürürdü, hakimiyyət uğrunda mübarizə gedirdi.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında Ermənistanda baş verənlərin gözlənilən olduğunu dedi:** "Çünki Ermənistanda artıq siyasi, iqtisadi və hərbi problemlər öz pik nöqtəsinə çatıb. Bundan başqa, qərbyönümlü siyasətçilər də artıq Rusiyanın özünü Ermənistanın sahibi kimi aparmasının əleyhinədirlər. Təsəvvür etmək belə olmur ki, ölkə iqtisadiyyatının yarısından çoxu xarici investorlara məxsusdur. Ən böyük problem də təbii ki, Qarabağ münaqişəsinin həllinin dalana dirənməsidir. Çünki ATƏT məsələni dəmək olar ki, həll edə bilmir, əsas təşəbbüsü bu gün Rusiya və ABŞ öz üzərinə götürüb. Sərkisyanın vəziyyəti də ağırdır. Çünki əsas problemi separatçı qurumun rəhbərliyi qarşısında götürdüyü müstəqillik öhdəçiliyini yerinə yetirə bilməməsidir. Məhz buna görə də bir sıra KİV-lərə özünə sərf edən tərzdə müsahibələr verir".

**A.Nağıyevin sözlərinə görə, Sərkisyanın hakimiyyətdən getməsi Azərbaycana sərf eləmir:** "Çünki hər şey yenidən ağ vərəqdən başlana bilər. Sərkisyanın istefası bu gün ancaq onun özünə sərf edə bilərdi. Lakin belə olanda Dağlıq Qarabağ ərazisində törətdiyi cinayətlərə görə beynəlxalq qurumlar qarşısında cavab vermək perspektivi də var. Yəni Sərkisyanın vəziyyətindən istifadə edərək Rusiya və Qərb vasitəsilə ona təsir etmək Azərbaycan üçün ən optimal variant olardı. Buna görə də danışıqlar daha da intensivləşməlidir, yoxsa elə həmin o Qərb tərəfindən düzənlənən çevriliş şousu uzandıqca status-kvo da saxlanacaq. Bu isə bizi qane etmir.

Qarabağ danışıqları hər zaman finişə yaxınlaşanda Ermənistanda qanlı hadisələr, yaxud siyasi kataklizmlər yaşanıb. Keçmiş prezident Levon Ter-Petrosyanın istefaya vadar edilməsi, Ermənistan parlamentindəki güllələbaran olayı da məhz Qarabağla bağlı anlaşma ərəfəsi zamanı baş verib. Bu mənada Rusiyanın moderatorluğu ilə intensivləşən Qarabağ danışıqlarının ilin sonunadək nəticə verəcəyinə ümidlər böyükdür. Hətta Rusiya XİN rəhbərliyi tərəflərin razılaşmaya indiki qədər yaxın olmadığını açıqlayıb. Ermənistandakı radikal qüvvələr isə güzəştləri birmənalı şəkildə rədd edərək Sərkisyanı devirəcəkləri ilə hədələyir ki, onlardan biri də neytrallaşdırılan Səfilyandır".

**Bəs S.Sərkisyan müqavimət qarşısında qalıb istefaya gedərsə, o halda Qarabağ məsələsinin həlli ilə bağlı hansı durum yarana bilər?**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Ermənistandakı hakimiyyət dəyişikliyinin Qarabağ məsələsinin həllinə təkan verəcəyini düşünmür:** "İlanın qarasına da lənət, ağına da. Serj Sərkisyan Azərbaycan torpaqlarının işğalında bilavasitə iştirak edib, Xocalı soyqırımını planlayanlardan və həyata keçirənlərdən biridir. Sərkisyan Qarabağla bağlı danışıqlarda da işğalçı mahiyyətindən geri çəkilmir, aprel ayında üzləşdiyi itkilərə rəğmən, dirənir və bununla növbəti hərbi toqquşmanın bünövrəsini qoyur. Ancaq polis bölməsini ələ keçirən və bu yolla Sərkisyanı devirmək istəyən qüvvələr ondan da beşbətərdir, onlar da Qarabağda qətliamlar törədiblər və buna görə peşman deyillər".

**E.Şahinoğlu şübhə etmir ki, bu gün Ermənistandakı hərbi qarşıdurmada aprel döyüşlərinin təsiri var:** "Onsuz da erməni cəmiyyəti səfalət içində yaşayır, üstəgəl, aprel ayında yüzlərlə vətəndaşını itirdi. İndi də Sərkisyana müxalif olanlar düşünürlər ki, Ermənistan prezidenti Azərbaycana güzəştə hazırlaşır, halbuki bu, belə deyil. Sərkisyanı devirsələr, onun yerinə gələnlər də Qarabağın işğalını davam etdirməyə çalışacaqlar. Ermənistandakı indiki situasiya bu ölkəni çarəsiz duruma sürükləyir, həm də o təsdiq olundu ki, əllərdə kifayət qədər silah var. Ermənistanda polis və ordudan kənar qüvvələr var ki, vaxtilə Qarabağ müharibəsində iştirak ediblər və buna görə özlərini imtiyazlı sayırlar. Vaxtilə Sərkisyan onlarla çiyin-çiyinə torpaqlarımızı işğal ediblər. İndi isə bir-birilərini öldürməyə hazırdırlar".

**Politoloqa görə, erməni cəmiyyəti də yetkin deyil:** "İşğal üzərində qurulmuş qələbə erməni cəmiyyətini birləşdirmək əvəzinə, onları düşmən edib. Sərkisyanın iki alternativi var: o, ya sistemdən kənar müxalifəti tam neytrallaşdırmalı, ya da dözüm nümayiş etdirib yalnız polis bölməsini ələ keçirənləri zərərsizləşdirməklə kifayətlənməlidir. Ancaq hər iki yol ona baha başa gələcək. Bütün hallarda tökülən qan Ermənistanda vətəndaş qarşıdurmasını artıracaq".

**E.Şahinoğlu Azərbaycanın hazırkı situasiyadakı qazancı barədə də fikirlərini bölüşdü:** "Biz elə etməliyik ki, bunlar öz aralarındakı "razborkanı" davam etdirsinlər, sərhəddə əsgərlərimizi snayper atəşi ilə öldürmək əvəzinə, özlərini öldürsünlər. Əslində Ermənistanda baş verənlər bizim apreldə qazandığımız uğurun təcəssümüdür. Onlar daxildə didişməyə baş vurmaqla faktiki bizə dolayı mesaj göndərirlər ki, ara-sıra cəbhə bölgəsində onlara dərs verək. Cəbhə bölgəsində onların dərsini verəndə bir-birilərini ittiham etməyə başlayır və silahı bir-birilərinə qarşı qaldırırlar".

Yazı çapa hazırlanana qədər Ermənistan paytaxtında gərginlik davam edirdi. Hər halda, proseslərin haraya qədər davam edəcəyi olduqca maraqlıdır. O da istisna deyil ki, S.Sərkisyan ölkəsindəki qarışıqlıq səbəbindən danışıqların növbəti raundunun ertələnməsinə nail olmaq istəyir. Çünki növbəti görüşdə konkret təkliflər müzakirə olunmalı idi. Çox güman ki, Sərkisyan ölkəsindəki güzəştə qarşı qiyam edənləri bəhanə edib torpaqları boşaltmaqdan imtina yolunu tutacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016

# Repetitor yanına getmədən də yüksək bal toplamaq mümkündür

## Təhsil eksperti: "İstedadlı uşaqları bir-bir seçib, onların təhsilinə xüsusi diqqət ayırmaq lazımdır"


Etibar Əliyev

**İyulun 15-də I və IV ixtisas qruplarının abituriyentləri (cari ilin məzunları) üçün keçirilən qəbul imtahanının nəticələri elan edilib. Nəticələrə əsasən, imtahanda iştirak etmək üçün sənəd vermiş 25 min 956 abituriyentdən 1035 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən 24 min 921 abituriyentdən 13 nəfəri qaydaları pozduğu üçün imtahandan xaric olunub və nəticələri ləğv edilib. İyunun 15-də keçirilən I və IV qruplar üzrə imtahan nəticələrinə görə 6 nəfər 700 bal toplayaraq ən yüksək həddi nümayiş etdirib. Yüksək bal toplayan abituriyentlər bunlardır:**

**I ixtisas qrupu üzrə: Tural Ağayev** Bakı Türk Liseyinin məzunudur, əslən Zəngilan rayonundandır. Turalın anası evdar qadın, atası isə fəhlədir.

**Rəvan Nəzərəliyev** - Xırdalan 5 saylı tam orta məktəbin məzunudur. Rəvanın atası maşın ustasıdır, anası riyaziyyat müəllimidir. Ailədə üç qardaşdılar. Rəvan ailədə yüksək bal toplayan ilk uşaq deyil. Böyük qardaşları da 600-dən yuxarı bal toplayaraq universitetə daxil olublar. Hansı ixtisası seçəcəyini dəqiqləşdirməyib.

**Nadir Sultanlı** - Ankara məktəb-liseyin məzunudur. Onun anası evdar qadındır, atası isə BP-də işləyir.

**IV ixtisas qrupu üzrə: Orxan Zülfüqarov** Şəmkir rayonu, Çinarlı qəsəbəsi 2 saylı orta məktəbin məzunudur. Orxanın atası riyaziyyat müəllimi, anası isə evdar qadındır. O, Tibb Universitetində təhsil almaq istəyir.

**Ağalətif Lətifov** - İsmayıllı rayonu, 5 saylı orta məktəbin məzunudur. Ağalətifin atası da İsmayıllı rayon 5 saylı orta məktəbdə riyaziyyat müəllimi, anası isə evdar qadındır. O da Tibb Universitetində təhsil almaq istəyir.

700 bal yığanlar arasında yeganə qız olan **Səbinə İsmayılova** isə Qazax rayonu Canallı kənd orta məktəbinin məzunudur. S.İsmayılovanın heç bir fənn üzrə repetitor yanına getmədiyi bildirilir. Bu qızın repetitor yanına getmədən ən yüksək balı toplaması bir daha göstərir ki, repetitor yanına getmədən də ali məktəbə qəbul olmaq və ən yüksək nəticəni göstərmək mümkündür.

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev bildirdi ki, istedadlı uşaqların təhsillərinə xüsusi diqqət yetirmək lazımdır:** "Ötən ilin nəticələri də göstərdi ki, regionlarda yüksək bal toplayanların sayında müsbət dəyişiklik var. Ancaq bu bir nəfərin nümunəsi onu göstərir ki, istedadlı uşaqlar repetitor xidməti olmadan belə ən yüksək nəticəni göstərə bilirlər. Ümumiyyətlə, istedadlı uşaqları bir-bir seçib, onların təhsilinə xüsusi diqqət ayırmaq lazımdır. Son vaxtlar uşaqların fənn olimpiadaları, ədəbiyyat müsabiqələri kimi tədbirlərin keçirilməsi və uşaqların bura cəlb olunması kimi hallar uşaqlarda təhsilə, oxumağa güclü motivasiyalar yaradır. Hesab edirəm ki, bu cür həvəsləndirici tədbirlərin sayı çoxaldılmalıdır. 600 baldan yuxarı göstəricilərin sayının çox olması əlbəttə ki, uşaqlarda daha yaxşı hazırlaşmağa həvəs oyadır. Bu cür uşaqların təşviqi ondan sonra gələn uşaqlara müsbət təsir göstərir. Bunun mətbuat vasitəsilə təbliği də normal səviyyədə qurulmalıdır. Qeyd etdiyim fənn olimpiada mərkəzlərinin fəaliyyət göstərməsi, uşaqların bilik yarışlarına cəlb olunması bu cür uğurları gücləndirə bilər. Hesab edirəm ki, bu həm də yaxşı məktəb mühitinin yaradılmasına gətirib çıxara bilər".

Qeyd edək ki, ictimai-siyasi sektorda tanınan bir sıra simaların da övladları bu il qəbul imtahanlarında iştirak edib və yüksək bal yığıb. Onlardan biri Hacı İlqar İbrahimoğludur. Onun övladı yüksək bal toplayaraq ali məktəbə qəbul olub. "Elçi" qəzetinin baş redaktoru Əli Həziquliyevin qızı Sevilay Həziquliyeva da 640 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunub.

İxtisas seçimi qəbul imtahanları başa çatdıqdan sonra (həm əvvəlki illərin, həm də cari ilin məzunlarının) bütün ixtisas qrupları üzrə iyulun 29-dan avqustun 10-dək aparılacaq. II və III qrup üzrə qəbul imtahanı isə iyulun 23-də keçiriləcək.

❑ **Günel MANAFLI**

# Yanan bina ilə bağlı "yanmalı" olanlar kənarda qaldı?!

## Binanı poliuretan üzlüklə örtməyi sifariş edən icra hakimiyyəti başçısından hesab sorulmadı...

**İyulun 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində son illər Azərbaycan tarixinin ən məşum olayı - ötən il mayın 19-da Binəqədi rayonunda yerləşən 16 mərtəbəli binada baş vermiş yanğınla bağlı məhkəmə prosesi davam etdiriləcək. Yanğın hadisəsi ilə bağlı 8 nəfər təqsirləndirilir.**

Bunlar 2012-2013-cü illərdə Binəqədi Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyinin rəisi işləmiş, daha sonra Binəqədi Rayon İcra Hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri olmuş Ədalət Rəcəbov, 72 saylı Mənzil-Kommunal İstismar Sahəsinin rəisi Nizami Orucov, 2012-2013-cü illərdə Binəqədi rayon İcra Hakimiyyəti başçısının birinci müavini olmuş Qəzənfər Novruzov, "Dərnəgül Boru" zavodunun polimlərin kimyəvi, fiziki-mexaniki xassələrin təyini laboratoriyasının rəhbəri Ağacavad Məmmədov, Səhiyyə Nazirliyi yanında Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru Akif Əlibəyov, "Global Stone" şirkətinin rəhbəri, əməkdar mühəndis Miryusif Mahmudov, "Global Stone" MMC-nin baş direktoru Uğur Başirov və "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərovdur. Təqsirləndirilən şəxslərə qarşı Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülüb.

İttihama görə, binanın "poliuretan" adlı materialla üzlənməsi sonradan binada ağır nətəcələrə gətirib çıxaran olayın yaşanmasına səbəb olub. Amma ittihamın əsaslı olmasına böyük, kifayət qədər ciddi şübhələr var.

Yanğından sonra həbsə alınan şəxslərin binaları "poliuretan" adlı materialla üzləmək haqda qərar vermək səlahiyyətlərinin olmadığı üzə çıxdı. Əgər binanın üzlənməsində istifadə edilən "poliuretan" tez alışan idisə, oda davamlı deyildisə, niyə binanın bu mterialla üzlənməsinə icazə verilirdi?

Həbsdə olan şəxslər iş icraçılarıdır. İşi sifariş verən isə Binəqədi Rayon İcra Hakimiyyətinin icra başçısıdır. Məntiqlə istintaq təqsirləndirilən şəxslərin siyahısını müəyyənləşdirərkən ilk dindirməli, istintaqa cəlb edilməli şəxs kimi məhz icra başçısının adını yazmalı idi.

Təqdim etdiyimiz təqsirləndirilən şəxslərin siyahısından göründüyü kimi, icra başçısı Xaləddin İsgəndərovun adı orada yoxdur.

Ümumiyyətlə, X.İsgəndərovun adı olsaydı belə, bu şəxslər istintaqa cəlb edilməzdən əvvəl binanın qəsdən yandırılması haqda məlumatlar çox ciddi şəkildə araşdırılmalı idi.

Bu haqda qəzetimizin son bir neçə sayında apardığımız araşdırmaların nəticəsi haqda geniş yazılar dərc etmişik. Məhkəmədə zərərçəkənlərin söylədiklərindən, olay şahidlərinin sözlərindən, mübhəm yanğından əvvəl və sonra ölkə boyu törədilən qəsdən yandırma faktlarının ortada olmasından belə aydın olur ki, Binəqədidəki 16 mərtəbəli bina siqaret külündən alışmayıb. Binanın 27 saniyə içində kibrit qutusu kimi yanmasına çox ciddi şəkildə hansısa formada köməklik edilib.

Məsələn, bu olaydan 3 gün əvvəl, 2015-ci il mayın 16-da Nərimanov rayonu, Koveroçkin küçəsindəki hündürmərtəbəli, yerləşməsinə, quruluşuna görə Binəqədidəki binanın "əkiz" tayını xatırladan binada yanğın törətmək istəyən şəxslər kəndiri neftə batıraraq binanın üstündən üz aşağı, "poliuretan" üzlüyün üzərindən buraxmışdılar.

Bu gün "poliuretan"ın keyfiyyətsizliyi üzündən yanması üzərində qurulan ittihamı əslində həmin işin obyektiv araşdırması darmadağın edərdi. Əgər "poliuretan" keyfiyyətsiz idisə, niyə Nərimanovdakı binada alışmayıb? Axı həmin "poliuretan" Binəqədidəki, Nərimanovdakı binalara eyni şirkət vurub. Eyni şirkət Türkiyədə sifariş edərək Azərbaycana gətirib, burada qəlibləyib və binalara vurub.

Üstəlik, 2015-ci il aprelin 10-da Xətai rayonu ərazisində yaşayış binasında "THN" şirkətinin "poliuretan"la üzlədiyi binadakı yanğından sonra Fövqəladə Hallar Nazirliyində geniş tərkibli iclas keçirilib. İclasa FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov başçılıq edib. İclasda yeganə müzakirə olunan mövzu Azərbaycanda binaların üzlənməsində istifadə olunan poliuretanın tezalışan olub-olmaması olub. Araşdırmalar zamanı məlum olub ki, digər tikinti şirkətlərinin, "THN"in istifadə etdiyi poliuretan daha aşağı keyfiyyətli və odadavamlılığı daha azdır. Respublikaya keyfiyyətli "poliuretan" idxal edən bu gün rəsmiləri üzərində məhkəmə qurulan "Global-Stone"dir. Hətta həmin iclasda "THN" şirkəti rəsmilərinə xüsusi olaraq tapşırılıb ki, binaların üzlənməsində istifadə etdiyi poliuretanı məhz "Global-Stone"də qəlibləsin.

Belə bir halda poliuretanın tezalışan olmasının ittihamın əsasını təşkil etməsi nə dərəcədə doğrudur?

Bəlkə Binəqədidəki binada "poliuretan" üzlüyün alışması üçün binanın damından üz aşağı, "poliuretan üzlüyün arxası ilə tezalışan maye axıdıblar?



Üstəlik, belə bir addımın mümkünlüyünü təsdiqləyən digər bir fakt da ortalıqdadır - fikir verin, 2015-ci il mayın 24-də, Binəqədidəki məşum olayın yaşanmasının 5-ci günü Gəncədə, Dədə Qorqud küçəsində hündürmərtəbəli yaşayış binalarından birinin üzərində "drujinnik"lər 2 şübhəli şəxsi saxlayıblar. Gecəyarısı əllərində dizel yanacağı ilə dolu kanistrlərdə damda gəzənlərdən biri Samux rayon sakini, digəri isə Rusiya Federasiyasının vətəndaşı olub. "Drujinnik"lər tutduqları hər iki şəxsi polisə təhvil veriblər. Hətta polisdən Gəncə İcra Hakimiyyətinə gecəyarısı damları əllərində yandırıcı maddə dolu kanistrlərlə gəzən şəxslər haqda məlumat verilib. Bu haqda MTN-in yerli şöbəsinə məlumat daxil olandan sonra hər iki şəxsi polisdən təhvil alıblar. MTN-ə aparılan hər iki şəxs sonradan istintaqa cəlb olunmayıb, barələrində cinayət işi başlanmayıb.

Bəs həmin 2 şəxs gecəyarısı, damda, əllərində tezalışan maye dolu kanistirlərlə niyə gəziblər? Kim olub həmin şəxslər? Niyə ortalıqdan yoxa çıxarılıblar?

Təəssüf ki, istintaq baş vermiş olaydan sonra fəaliyyətini araşdırmalı olduğu şəxsləri həbs etməklə işini bitmiş hesab etdi. Nəticədə bu gün yanğın zamanı dünyasını dəyişmiş 15 nəfərin, xəsarət almış 56 şəxsin sırasına 8 nəfər də azadlıqdan məhrum edilməklə "yandırılır".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 155 (6476) 19 iyul 2016

**Yay aylarında hər kəs müxtəlif rayonlara, ölkələrə gedib dincəlmək istəyir. Türkiyədəki qarışıqlıq ora üz tutmaq istəyən turistlərin bir qismini fikrindən daşındırıb və onlar ölkə daxilində istirahət etmək qərarına gəliblər. Ancaq istirahət mərkəzlərində, bölgələrdə hotellərdə qalmaq üçün ailələrdən, cütlüklərdən evlilik haqqında şəhadətnamə tələb olunur.**

# Sovetdən qalan ənənə - hoteldə qalmaq üçün mütləq evlənməlisiniz

## Hüquqşünas: "Bizim qanunda belə bir norma yoxdur"



## Turizm eksperti: "Cütlüklərin mənşəyi müəyyən qədər də olsa, yoxlanılmalıdır"

Əgər bir ailə və ya cütlük yanında evlilik haqqında şəhadətnaməsini götürməyib və ya itiribsə, onlara hoteldə gecələməyə icazə verilmir və ya ayrı-ayrı otaqlar təklif edilir. Bu cür tələbin haradan qaynaqlanması ilə maraqlandıqda isə hotel sözçüləri bunu onlardan DİN-in tələb etdiyini və ya Mədəniyyət və Turizm Nazirliyi tərəfindən belə göstəriş olduğunu bildirirlər. Bəzi bölgələrdəki hotellərdə isə bunun icra başçısının tapşırığı olduğunu deyirlər.

Qeyd edək ki, bugünlərdə mədəniyyət və turizm naziri Əbülfəz Qarayev açıqlama verərək turizm mərkəzlərində nikah kağızının tələb olunmasının heç bir əsasının olmadığını bildirib. O, Azərbaycan qanunvericiliyində hoteldə qalanlardan nikah kağızının tələb olunması ilə bağlı bir müddəa olmadığını bildirib. **"Mən istəməzdim ki, Azərbaycanın hotelləri əxlaqsızlıq yuvasına çevrilsin. Bu, bizim milli dəyərlərimizə uyğun deyil. Amma hesab edirəm ki, əgər kimsə pasportunu təqdim edərək hoteldə qalırsa, onun yanına gələn qonaqlarla maraqlanmağa dəyməz",** - deyə nazir qeyd edib.

Məsələ ilə bağlı DİN-dən isə bildirdilər ki, bu məsələni araşdırıb yaxın vaxtlarda açıqlama verəcəklər. Maraqlıdır ki, bölgələrdəki istirahət mərkəzlərindəki hotellərdə bu tələb yalnız yerli turistlərə aid edilir. Xarici turistlərdən nikah haqqında kağız istənilmir.

Belə bir ənənə əslində sovet dövründən miras qalıb. Belə ki, o vaxt hotellərdə nikah şahadətnaməsi olmadan ər-arvad olsa belə, bir otaqda qalmağa icazə verilmirdi. Buna görə də ailənlə harasa istirahətə gedirdinsə, mütləq "ZAQS" kağızın yanında olmalıydı. Görünür ki, bu ənənəni bir çox bölgələrimiz hələ də yaşadır. Əslində hoteldə gecələmək üçün hər bir vətəndaş xüsusi forma - gəliş vərəqəsini doldurur və orada öz şəxsiyyət vəsiqəsinə dair göstəricilərini: soyadı, adı, doğum tarixi, daimi yaşayış yerinin ünvanı və s. qeyd edir. Həmin vərəqədə eyni zamanda mehmanxanada qalma qaydaları və rejimi də öz əksini tapır. Sənədə atılan imza onu təsdiq edir ki, mehmanxanada gecələyən turist xidmət qaydaları və qiymətləri ilə tanış olub. Sonra vərəqədəki göstəricilər mehmanxananın qeydiyyat bankına daxil edilir və şəxsiyyəti təsdiq edən sənəd dərhal müştəriyə geri qaytarılır.

Sivil ölkələrin hotellərində isə qayda budur ki, ikinəfərlik nömrədə qeydiyyat üçün iki nəfərdən birinin sənədi kifayət edir. Nömrəni rezerv edərkən orada belə qeyd olunur - "Rezerv edən insanın adı və + 1 nəfər qonaq".

Həmin qonağın kim olmasının, sənədinin olub-olmamasının isə heç kimə aidiyyəti yoxdur. Maraqlıdır, Azərbaycan qanunvericiliyində bununla bağlı hansısa müddəa, qadağa varmı?

**Hüquqşünas Müzəffər Baxış qanunda belə bir normanın olmadığını dedi:** "Bizim qanunda belə bir norma yoxdur ki, hotellərdə nikah şəhadətnaməsi tələb olunmalıdır. Amma əxlaqsızlığın qarşısını almaq üçün müəyyən hotellərdə evlilik haqqında şəhadətnamə tələb olunur. Lakin qanunun özündə belə bir qayda nəzərdə tutulmayıb ki, hotelə gedəndə ər-arvaddan nikah haqda şəhadətnamə tələb edilsin. Amma bu hotelləri də başa düşmək olur. Çünki daxili işlər orqanları onları incidir, müəyyən təzyiqlər göstərirlər. Onlar da məcburiyyət qarşısında qalıb belə bir şəhadətnaməni tələb edirlər. Bunların hamısı idarəetmədə olan qüsurlarla bağlıdır. Həm də hotellərin özlərinin fəaliyyətini tənzimləyən normativ hüquqi bir akt yoxdur. Bütün bunlar da son nəticədə ailəli insanların hüquqlarının pozuntusuna gətirib çıxarır. Elə hotellər də var ki, ümumiyyətlə, belə halları təbliğ edir. Belə sənədlər istəmirlər. Elə hotellər də var ki, bilirlər ki, bunlar ər- arvaddır, əsassız olaraq onlardan nikah haqqında şəhadətnamə istəyirlər. İstəyirlər ki, onlara bir az artıq pul versinlər ki, onlara həmin hoteldə yer ayırsınlar. Bu, Azərbaycan reallığıdır ki, pul qazanmaq üçün bütün qanunsuzluqlara gedirlər".

**Bu kimi halları antiturizm halı kimi qiymətləndirənlər də var. Bir sıra mütəxəssislər qanunda yer almayan bu cür tələblərin turizmə mənfi təsir etdiyini düşünür. Belə ki, turizm mütəxəssisi Elxan Vəliyev xarici turistlərdən bu cür tələb olmadığını dedi:** "Bu, bir sıra neqativ halların qarşısını almaq üçündür. Türkiyə təcrübəsinə nəzər salsaq görərik ki, orada müəyyən hotellər var ki, ora sırf cütlüklər üçün nəzərdə tutulub. Bu hotelə gedərkən yanında mütləq bir xanım olmalıdır. Digər tərəfdən, bu yalnız yerli turistlər üçün tələb olunur, xarici turistlərdən evlilik haqqında şəhadətnamə tələb olunmur. Çünki burada məqsəd xarici turistlərin ölkəmizə cəlb edilməsi və Azərbaycana xaricdən investisiyaların daxil olmasıdır. Cütlüklərlə bağlı hər il hotellərdə müəyyən problemlər yaşanır. Buna görə də bu cütlüklərin mənşəyi müəyyən qədər də olsa yoxlanılmalıdır. Ola bilər ki, hotel haqqında evlilik şəhadətnaməsinin tələbi qanunvericilikdə yoxdur. Amma bir çox özünə hörmət edən şirkətlər bu sahədə xüsusilə tədbir görürlər ki, həm öz şirkətlərinin adı batmasın, həm də təhlükəsizlik qaydalarına əməl olunsun. Yəni o məsələlərə riayət olunur. Amma təəssüflər olsun ki, tək turizm şirkətləri burada həlledici rol oynamır. Orada tanışlıqla da gedib yerləşmək mümkün olur. Ola bilər ki, hotel rəhbərliyi nikah şəhadətnaməsi olmayan cütlüklərin hotelə girməsinə qadağa qoysun, amma içəridə işləyənlərin tanışlığı ilə daxil ola bilirlər. Bir sözlə, hotelin daxilindəki kiçikdən böyüyə qədər saxtakarlığın sayəsində bu cür cütlüklər hotelə girə bilirlər və hansısa arzuolunmaz hal yaşanır".

❑ Günel MANAFLI

# Kəndə qayıdış planı "kağız üzərində" qaldı

## Qubad İbadoğlu: "Bu istiqamətdə siyasət fərqli olmalıdır..."



**Manatın dollara nisbətdə ucuzlaşmasından sonra paytaxtda bir çox dövlət və özəl müəssisələrdə ixtisarların olması, tikinti sektorunda işlərin dayanması ötən illər ərzində rayonlardan Bakıya iş üçün gələn xeyli insanın işsiz qalaraq yenidən bölgələrə qayıtmasına səbəb oldu.**

Həmin ərəfədə bir çox ekspertlər bildirdilər ki, mövcud şəraitdə hökumət xüsusi proqram hazırlamalı və "kəndə qayıdış planı"ndan istifadə edərək, ölkədə kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafına dəstək olmalıdır. Lakin artıq devalvasiyadan 7 aya yaxın vaxt keçsə də kəndlinin torpağından qazanması üçün hər hansı bir xüsusi proqram hazırlanmayıb. Nəticə olaraq, insanlar yenidən şəhərlərə üz tutmağa məcbur olublar.

**Kəndə qayıdış planı nə üçün baş tutmadı?**

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert Qubad İbadoğlu bildirib ki, ölkədə ümumi iqtisadi vəziyyət pisləşib:** "Bu baxımdan hesab etmirəm ki, kəndə qayıdanlar yenidən Bakıya üz tutmağa başlayıblar. Sənayeyə, tikinti sektoruna nisbətdə ölkədə kənd təsərrüfatında vəziyyət daha yaxşıdır. İlin 6 aylıq yekununda həm əkinçilikdə, həm heyvandarlıqda göstəricilərin digər sahələrlə müqayisədə yüksək olduğu bəlli oldu. Məsələ bundan ibarətdir ki, bu ərəfədə insanlar nə Bakıya, nə də kəndə üz tutmurlar. Son zamanlar müşahidə olunur ki, əlaqəsi və imkanı olan şəxslər ölkədən gedirlər. Çünki ölkədə perspektiv görmürlər. Yəni ölkədaxili miqrasiyadan çox, ölkə xaricinə gedənlərin sayında artım var. Doğrudur ki, devalvasiyadan sonra şəhərdən kəndə axın olub. Bu, tikinti sektorunun çökməsi ilə bağlı idi. Çünki kənddən gələnlərin böyük əksəriyyəti Bakıda tikintidə çalışırdılar. Bu ilin 6 ayının yekunlarına görə, tikinti sektorunda istehsal əvvəlki dövrlə müqayisədə 35 faizdən çox azalıb. Yəni bu, eyni zamanda həm də iş yerlərinin bağlanması deməkdir. Xüsusilə də yay mövsümündə insanlar müəyyən xərclərini şəxsi və yardımçı təsərrüfatları hesabına qarşılaya bilirlər. O baxımdan hesab etmirəm ki, iş yerlərini itirənlər şəhərdə digər sektorlarda iş axtarmaq üçün Bakıya qayıdacaqlar. Çünki xüsusilə də Bakı şəhərində olan digər sənaye sektorlarında ciddi problemlər var. Orada iş tapmaq asan deyil".

**Ekspert kəndlinin torpaqdan qazanması üçün nələrin edilməli olduğunu aşağıdakı kimi izah edib:** "Yanaşma eyni ola bilməz. Elə ucqar kəndlər var ki, orada kənd təsərrüfatı ilə məşğul olmaq üçün şərait yoxdur. Hətta elə yerlər var orada heyvandarlıqla da məşğul olmaq olmaz. Bu baxımdan siyasət fərqli olmalıdır. Harada ki, əkinçilik, heyvandarlıq üçün imkanlar var, orada dövlət siyasəti önə çıxmalıdır. Kənd təsərrüfatında problemlər texniki təminatda, məhsuldarlıqda var. Dövlət olaraq kənd təsərrüfatının inkişafı üçün daha münbit şərait yaradılmalıdır. Əsas məsələ ondan ibarətdir ki, kəndlinin bu işi görməsi üçün maliyyə vəsaitlərinə çıxışı təmin edilməlidir. Azərbaycanda kənd təsərrüfatının kreditləşməsi bərbad vəziyyətdədir. Çünki kənd təsərrüfatında sığorta sistemi də yoxdur. Əgər kimsə öz heyvandarlıq təsərrüfatına kredit götürmək istəyirsə, ilk növbədə təsərrüfatın sığortalanmasına nail olmalıdır. Bu baxımdan kənd təsərrüfatının sığortalanması sahəsində islahatlar aparılmalıdır. Bundan əlavə, xüsusilə də heyvandarlıqda iri və xırda buynuzlu heyvanların qeydiyyatı həyata keçirilməlidir. Qeydiyyat olmadan sığorta, sığorta olmadan isə kredit olmur. Bu baxımdan düşünürəm ki, ilk növbədə bütövlükdə kənd təsərrüfatında qeydiyyat problemi qaydasına düşməlidir. Daha sonra sığortalanma ilə bağlı xüsusi agentlik yaradılmalı, kreditləşmədə islahatlar aparılmalıdır".

**Q.İbadoğlu ölkədə kənd təsərrüfatı bazarının vəziyyəti barəsində də danışıb:** "Bazar dinamikdir. Bazarı dövlət tənzimləməli deyil, sadəcə olaraq alış qiymətini müəyyən etməlidir. Kəndli isə onu o necə və kimə satmaq məsələsində azad seçimə malik olmalıdır. Hazırda təbii ki, bazarlar arasında əlaqələr də çox zəifdir. Misal üçün, görürsən ki, regionda qiymətlər çox aşağıdır, ancaq ölkənin mərkəzi şəhərlərində kifayət qədər bahalıqdır. Bu da bazarlar arasında nəqliyyat, kommunikasiya və digər bu kimi problemlərin mövcudluğudur. Eyni zamanda həmin məhsulun satış bazarına çatdırılması məsrəflərinin həm qeyri-rəsmi, həm də rəsmi olaraq bahalığının nəticəsidir".

❑ Əli RAİS

# Borclu borclunun sağlığını istəmədi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Xızı rayonunda qətl törətməkdə ittiham olunan 1989-cu il təvəllüdlü Babək Əzimovun cinayət işi üzrə məhkəmə hazırlıq iclası keçirilib.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Faiq Qəniyev sədrlik edib. Hazırlıq iclasında da hakim özü-özünə etiraz edib. Buna səbəb hakimin ibtidai istintaqi aparan müstəntiqlə qohum olmasıdır. Hazırlıq iclası dayandırılıb və cinayət işi dəftərxanaya təqdim olunub. Cinayət işi başqa hakimin icraarına veriləcək.



Qeyd edək ki, bu ilin fevralı ayının 4-də Xızı rayonunun Giləzi qəsəbəsində yaşayan Elmir Qulamovun üzərində kəsilmiş-deşilmiş xəsarətlər olan meyiti yaşadığı ərazidə tapılıb.

Xızı Rayon Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni münaqişə zəminində törətmiş Bakı şəhər sakini, 1992-ci il təvəllüdlü Babək Əzimov saxlanılıb.

Hadisəni törədən Babək Əzimov qəsəbədə kafe və mağaza işlədirmiş. E.Qulamovun bir müddət imiş ki, B.Əzimovgilin işlətdiyi mağazaya borcu varmış.

B.Əzimov ilkin ifadəsində bildirib ki, Elmiri ipə-sapa yatmayan adam kimi tanıyırmış və buna görə də ondan pulu ehtiyatla istəyib. Üstəlik, fevralın 4-də Elmir Qulamov onların evinə gələndə Babək ona borcu bağışladıqlarını deyib. Amma buna baxmayaraq, tərəflər arasında münaqişə yaranıb. İnsident qansız ötüşməyib.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Bakıda zəncirvari qəza baş verib, yaralananlar var

**Bakının Nobel prospektində zəncirvari qəza baş verib. "Report"un hadisə yerində olan əməkdaşı xəbər verir ki, qəza nəticəsində "Mercedes, "Hyundai", "Toyota" və "Shevrolet" markalı avtomobillərə ciddi zərər dəyib.**

Hadisə nəticəsində bəzi avtomobillər yararsız hala düşüb, "Shevrolet" markalı avtomobil yolun səki hissəsinə aşıb.

Hadisə nəticəsində ölən olmasa da, üç nəfər yaralanıb.

## Paytaxt sakini müəmmalı şəkildə bıçaqlanıb

**Bakıda daha bir bıçaqlanma hadisəsi baş verib. "Report"un xəbərinə görə, Xətai rayonunun Gəncə prospektində ev 17-də yaşayan 1979-cu il təvəllüdlü Azər Bilalov yaşadığı mənzildən qarın nahiyəsinin kəsilmiş-deşilmiş yaraları ilə 3 saylı Şəhər Klinik Xəstəxanasına aparılıb.**

Vəziyyəti ağır olduğundan A.Bilalovun dindirilməsi mümkün olmayıb.

Araşdırmalar davam etdirilir.

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Balakəndə polis xüsusi narkotik əməliyyatı keçirdi

**Balakəndə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı xüsusi əməliyyat keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, iyulun 15-də Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Balakən rayonunun Katex kəndində rayon sakini Akin Şabanov 315 qram marixuananı satarkən tutulub.**

Katex kəndində A.Şabanova narkotik vasitəni vermiş Hənifə kənd sakini Kamil Məmmədov iyulun 16-da saat 01 radələrində tutularkən, o, idarə etdiyi "Nissan" markalı avtomobillə polis əməkdaşlarına məxsus xidməti avtomobilləri vurub qaçmağa cəhd göstərib. Bu zaman polis əməkdaşlarından biri xidməti silahdan 1 dəfə atəş açaraq K.Məmmədovun idarə etdiyi avtomobilin arxa təkərini deşib.

K.Məmmədov tutulub və idarə etdiyi avtomobilə baxış zamanı 522 qram marixuana və elektron tərəzi aşkar edilərək götürülüb.

Davam etdirilən tədbirlərlə Balakən rayon sakini Mətləb Yusifovun yaşadığı evə baxış zamanı 8,42 qram marixuana aşkar edilərək götürülüb.

## Əkin sahəsində işləyən kişi faciəli şəkildə öldü

**Samux rayonunda 32 yaşlı kişini elektrik cərəyanı vuraraq öldürüb. Rayonun polis idarəsindən ANS PRESS-ə verilən məlumata görə, hadisə Ziyadlı kəndində qeydə alınıb. Kənd sakini 1984-cü il təvəllüdlü Fuad Əsgərov əkin sahəsində işləyərkən ərazidən keçən elektrik xəttinə toxunub. Hadisə zamanı onu cərəyan vurub və F. Əsgərov hadisə yerində ölüb.**

Faktla bağlı Samux Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

Daha bir cərəyanvurma hadisəsi Qəbələ rayonunun Nic qəsəbəsində baş verib. Qəsəbə sakini Eldar İslamov ot biçərkən elektik cərəyanı vurması nəticəsində ölüb.

Yüksək gərginlikli elektrik xəttinə toxunmuş Salyan rayon sakini isə xəstəxanaya yerləşdirilib. Ötən gün Salyan rayonunun Qardili kəndinin otlaq sahəsində rayon sakini Səyyad Ağayev həmyerlisi Eyyub Şikarovun idarə etdiyi "MTZ-80" markalı traktora ot bağlamaları yükləyərkən 10 min kvt-luq elektrik kabelinə toxunub.

Bu zaman yanğın baş verib. Nəticədə ot bağlamaları və traktorun yanar konstruksiyaları yanıb və yanıq xəsarəti almış S.Ağayev xəstəxanaya yerləşdirilib.

## Hava xəbərdarlığı - 43 dərəcə isti olacaq

**İyulun 23-dək ölkə ərazisində bəzi yerlərdə 43 dərəcə isti olacağı gözlənilir. Azərbaycanda müşahidə ediləcək isti hava şəraiti ilə bağlı xəbərdarlıq edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, iyulun 23-dək ölkə ərazisində isti hava şəraitinin davam edəcəyi, havanın maksimal temperaturunun 35-40 dərəcə , bəzi yerlərdə 43 dərəcə isti olacağı gözlənilir.**

İyulun 19-da Bakıda və Abşeron yarımadasında anomal isti hava şəraiti fonunda zəif küləklərin üstünlüyü və bəzi saatlarda havada yaranan durğunluq əksər əhali üçün çox əlverişsizdir. Uzun müddət qızmar günəş altında olmaq məsləhət deyil.

Sabah isə Bakıda və Abşeron yarımadasında hava şəraiti az buludlu, yağmursuz keçəcək. Cənub küləyi əsəcək. Havanın temperaturu gecə 22-27 dərəcə, gündüz 34-39 dərəcə isti, Bakıda gecə 24-26 dərəcə, gündüz 36-38 dərəcə isti olacağı gözlənilir.

Abşeron çimərliklərində dəniz suyunun temperaturunun Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulbada 21-22 dərəcə, Buzovna, Mərdəkan, Şüvəlanda 23-24 dərəcə, Türkan, Hövsan, Sahil, Şıxda 25-26 dərəcə olacağı gözlənilir.

Azərbaycanın rayonlarında yağmursuz hava şəraitinin olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-27 dərəcə isti, gündüz 37-40 dərəcə, bəzi yerlərdə 43 dərəcə isti, dağlarda gecə 16-21 dərəcə isti, gündüz 28-33 dərəcə isti olacağı gözlənilir.

## Elan

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

# Rio, devrilmiş prezident, Zika və Rusiya...

## İlk dəfədir ki, Cənubi Amerikada keçiriləcək olimpiadaya ev sahibliyi edən Braziliyada antiolimpiya əhvalı var; ölkə prezidenti korrupsiya ittihamı ilə vəzifəsindən kənarlaşdırılıb; Rusiya dopinq qalmaqalına görə yarışlardan kənarlaşdırılacaqmı?

**Avqustun 5-də Braziliyanın Rio-de-Jeneyro (qısa olaraq Rio yazacağıq) şəhərində XXXI Yay Olimpiya Oyunlarının (Braziliyada qış fəslidir) açılışı olacaq. Bütün Yer kürəsi ölkələrinin iştirakçısı olduğu olimpiya oyunları ən miqyaslı yarış sayılsa da, dünyanın başı hazırda çox qarışıqdır. Fransadakı Avropa çempionatından sonra İŞİD yenidən "boy göstərir".**

Elə Braziliyanın özündə də ağır sosial vəziyyət səbəbindən olimpiya məşəlinin bir neçə dəfə nümayişkaranə söndürülməsinə cəhd edilib. İlk dəfədir ki, Cənubi Amerikada keçiriləcək olimpiadaya ev sahibliyi edən Braziliyanın xanım prezidenti may ayında korrupsiya ittihamı ilə ən azı 6 ay vəzifəsindən kənarlaşdırılıb. Dilma Rousseff büdcə vəsaitlərini 2014-cü ildə yenidən prezident seçilməyə yönəltməkdə və vergi pozuntularında günahlandırılır. 2018-ci ilin prezident seçkisinədək dövlət başçısının səlahiyyətlərini vitse-prezident Mişel Temer həyata keçirir.

### Bakı da Rioya alternativ olmuşdu, amma...

Yay Olimpiya Oyunlarına təşkilatçı olmaq istəyən ölkələr ərizələrini hələ 2007-ci ilin mayında verməyə başlamışdı. Sentyabr ayında turniri təşkil etmək istəyən ölkələrin siyahısında ilk yerdə Azərbaycan paytaxtı Bakının namizədliyi vardı. Bakıdan başqa namizəd şəhərlər sırasında Doha (Qətər), Madrid (İspaniya), Praqa (Çexiya), Rio (Braziliya), Tokio (Yaponiya), Çikaqo (ABŞ) və Sankt-Peterburq (Rusiya) vardı.

2008-ci ilin iyununda isə iddiaçılardan yalnız 4 ölkənin namizədliyi final seçiminə saxlanıldı: Madrid, Rio, Tokio və Çikaqo. 2009-cu ilin 2 oktyabrında Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Danimarkada keçirilən 121-ci sessiyasında üç turda keçirilən yekun səsvermədə Yay Olimpiya Oyunları üçün Rio seçildi.

Buna qədər Rio 1936-cı, 1940, 2004 və 2012-ci illərdə olimpiadanı keçirmək üçün müraciət etsə də, heç vaxt final mərhələsində səsverməyə qatıla bilməmişdi.

2014-cü ildə BOK-un Riodakı stadionların hazırlıqlarından narazı qaldığı üçün olimpiadanın başqa ölkədə keçirilməsi ilə bağlı müzakirələrə başlaması barədə xəbərlər yayıldı. Məlumatlarda bildirilirdi ki, olimpiadanın Londonda, Şotlandaniyanın paytaxtı Qlazqoda və Moskvada keçirilə bilməsi variantı araşdırılır. Amma BOK 2014-cü ilin yayında futbol üzrə dünya çempionatını yüksək səviyyədə keçirən Braziliyanı bu hüquqdan məhrum etmədi. Qeyd edək ki, 5-21 avqust aralığında keçiriləcək Rio olimpiadasında iştirakçılar 28 idman növündə 306 dəst medal uğrunda mübarizə aparacaq. Yarışlar başa çatdıqdan sonra Rioda 7- 18 sentyabr tarixlərində XV-ci Paralimpiya Oyunları da keçiriləcək. Paralimpiyaçılar 22 idman növündə 528 medal uğrunda yarışacaqlar.

### Biletlərin 70 faizi satılıb

Rio olimpiadasının Təşkilat Komitəsi bəyan edib ki, biletlərin 70 faizi artıq satılıb. Qeyd edək ki, satış məntəqələri iyunun 20-də açılıb. Buna qədər biletləri ancaq Braziliya vətəndaşlarının internet üzərindən alması mümkün idi. Təşkilat komitəsi bəyan edib ki, satışda 1,7 milyon bilet qalıb.















### Zika virusu-idmançıların qorxulu yuxusu

Braziliyada ağcaqanadlar yolu ilə keçən Zika virusu da idmançıların və oyunları izləməyə getmək istəyənlərin qorxulu röyasına çevrilib. Bugünlərdə BBC-nin bir qrup əməkdaşı Rioya getməkdən imtina edib. Onlar bu imtinanı Zika virusuna yoluxmaqdan qorxmaları ilə izah ediblər. Braziliyanın idman naziri Leonardo Piççiani bəyan edib ki, olimpiada zamanı heç kimin virusa yoluxmaq təhlükəsi yoxdur. Ümumdünya Səhiyyə Təşkilatı da belə bir təhlükə olmadığını bəyan edib. Amma virusa yoluxmaqdan qorxduğu üçün tennisçi Korolina Plişkova, Simona Xalep, Miloş Roaniç, Tomaş Berdıx, o cümlədən qolfçular Ceyson Deya, Dastina Conson və Rori Makilroyanın Braziliyaya getməyəcəkləri dəqiqləşib.

### 500 min turist gələcək, hamısı da yoxlanacaq

Braziliya ötən həftə Nitsadakı dəhşətli terror aktından sonra təhlükəsizliklə bağlı tədbirləri yenidən nəzərdən keçirir. Bu barədə **Braziliyanın müdafiə naziri Raul Yunqmann** bəyan edib. O deyib ki, hökumət bu istiqamətdə artıq fəaliyyətinin gücləndirib:**"Nəzarət-buraxılış məntəqələrinin sayını artırmaq lazımdır. İnsanlar öz təhlükəsizliyi naminə daha təmkinli olmalı, rahatlıqlarının bir hissəsindən vaz keçməlidirlər. Biz ölkəyə gələcək 500 mindən artıq insanı yoxlamadan keçirməliyik, çünki onların arasında terrorçular da ola bilər".**

### Rusiyanı rüsvay edən Rodçenko...

Bir neçə aydır ki, Rusiyanın Rio olimpiadasından uzaqlaşdırıla biləcəyi ilə bağlı informasiyalar yayılır. Rusiya idmançıları ilə bağlı dopinq qalmaqalı Moskva antidopinq laboratoriyasının sabiq rəhbəri Qriqori Rodçenkonun açıqlamalarından sonra başlayıb. ABŞ-a sığınan Rodçenko bəyan edib ki, 2014-cü il Soçi Qış Olimpiadasında Rusiya idmançılarının medal almış ən azı 15 nəfəri dopinqdən geniş istifadə edib. Ölkədən qaçan Rodçenko bəyan edib ki, bundan dövlətin idmanı kurasiya edən rəhbərlərinin nəinki xəbəri olub, hətta bu, ayrıca proqram şəklində icra olunub. Bundan sonra Rusiya idmançıları kütləvi olaraq dopinq testlərinə cəlb olunub və iddialar əsaslı çıxıb. Bu səbəbdən də bir neçə idmançının qazandıqları medallar alınıb, bir neçə məşhur idmançıların Rio olimpiadasına qazandıqları lisenziyalar ləğv olunub.

Rusiyada vətən xaini elan edilən Rodçenkonu ABŞ Federal Təhqiqatlar Bürosu şahidi müdafiə proqramı altında öz qorumasına alıb. Life.ru saytı yazır ki, Rodçenko həyatına təhlükə olduğunu deyib. O deyib ki, hazırda Amerikadadır və kitab yazır. Bildirilir ki, Rusiya onu geri istəmək istəsə də, bu, hüquq cəhətdən mümkün deyil, çünki ABŞ və Rusiya arasında belə bir rəsmi razılaşma yoxdur.

### Rusiya idmançıları üçün mühüm gün

İyulun 17-də isə 10 ölkənin antidopinq qurumları və 20 müxtəlif idmançılar qrupu BOK prezidenti Tomas Baxa Rusiyanın Rio olimpiadasından uzaqlaşdırılması üçün müraciət edib. "New York Times"ın iyulun 17-də elektron versiyasının yaydığı xəbərdə deyilir ki, bu müraciətə səbəb Rusiya idmançılarının adının dopinq qalmaqalında hallanmasıdır. Bildirilir ki, müraciəti ABŞ, Almaniya, İspaniya, Yaponiya, İsveçrə və Kanadanın antidopinq komitələri edib. İdmançılara gəlincə, onlar da bir neçə ölkənin olimpiyaçılarıdır.

ABŞ Antidopinq Agentliyinin rəhbəri Trevis Tayqart qəzetə açıqlamasında Rusiyanın dövlət səviyyəsində idmançılarının dopinqə bulaşmasını himayə etdiyinə inanmadıqlarını deyib: **"Amma biz ən pis varianta da hazır olmalıyıq, təmiz idmançıların qarşısında öz borcumuzu yerinə yetirməliyik".** Beynəlxalq Antidopinq Agentliyi də Rodçenkonun iddiaları əsasında may ayında geniş araşdırmaya başlayıb ki, bu hesabat da iyulun 18-də Bakı vaxtilə gecə saatlarında BOK-un toplantısında elan edilməli idi.

Almaniyalı jurnalist, Rusiya idmançılarının dopinq istifadəsi ilə bağlı qalmaqallı araşdırma filminin müəllifi Xayko Zappelet də məsələyə münasibət bildirib. O deyib ki, Rusiya idmançılarının Rio olimpiadasından uzaqlaşdırılması gözləniləndir. **"BOK prezidenti Tomas Bax təzyiqlər qarşısında hərəkətə keçməlidir. O, prezident olduğu ildən bəri ilk dəfə tələyə düşüb. Bu, idman tarixində görünməmiş hadisədir. Bu səbəbdən onun Rusiya prezidenti Vladimir Putinlə münasibətlərinin yaxşı olması heç də həlledici olmaya bilər".** Xatırladaq ki, mayın 18-də Tomas Bax Rusiyanın olimpiya oyunlarından çıxarılacağını istisna etməmişdi. O bildirmişdi ki, mütəşəkkil dopinq sisteminin mövcudluğu ilə bağlı sübutlar tapılsa, beynəlxalq federasiyalar və BOK çətin qərar qəbul etməli olacaq.

Rusiyanın idman naziri Vitali Mutko BOK prezidentinə müraciətdən narazı qaldığını bildirib: **"Hər şey sanki nəticəsi bilinən şahmat oyunu kimi gedir. Maklarenanın hesabatı(Beynəlxalq Antidopinq Agentliyinin rəhbəri-N.S.) hələ dərc edilməyib, amma ABŞ Antidopinq Agentliyinə hər şey məlumdur. Bu, təəccüb doğurur. Bəlkə Tayqert özü yazıb bu hesabatı?"** Mutko deyib ki, Moskva Antidopinq laboratoriyası onların deyil, Beynəlxalq Antidopinq Agentliyinin nəzarətində olub. "Onlar yox, biz sual verməliyik ki, laboratoriyada işlərini necə qurublar?" Mutkonun bu açıqlaması Rusiya idmançılarının Rio olimpiadasından uzaqlaşdırılma ehtimalının böyük olduğunu göstərir. Aydındır ki, izolyasiyada olan Rusiyanın Rio olimpiadasından uzaqlaşdırılması daha çox siyasi dairələrin qərarından asılı olacaq.

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 155 (6476) 19 iyul 2016



# Çaxır artıq çəkiyə təsir edirmiş

**Amerika alimləri belə bir qənaətə gəliblər ki, çaxır qadınları artıq çəkidən qoruyur. Sən demə, çaxırda çox sayda kalori olmasına baxmayaraq, ondan ağılla içmək qadın fiqurasını gözəlləşdirir. Alimlər son 13 il ərzində çaxırın qadın metabolizminə təsirini öyrənməyə çalışıblar.**

Araşdırmalarda 19.220 amerikalı qadın iştirak edib. Çaxırdan ağılla istifadə edən qadınların çəkisi mineral su və hətta suya üstünlük verənlərdən fərqli olaraq gec artır. Alimlər hesab edir ki, alkoqolun tərkibində olan kalori digər maddələrdə olan kalorilərdən fərqli olaraq çəkiyə az təsir edir. Lakin bunun səbəbi hələlik aydınlaşdırılmayıb.

Belə bir ehtimal var: müntəzəm olaraq alkoqoldan istifadə edən insanın qaraciyəri maddələr mübadiləsi üçün əlavə fəallıq göstərir, artıq enerjini yağa yox, istiliyə çevirir.

13 il davam etmiş eksperiment gedişində araşdırmalarda iştirak etmiş qadınların 38 faizi içkiyə olan münasibətləri barədə danışıblar və öz çəkilərini qeyd ediblər. Eksperiment gedişində məlum olub ki, alkoqoldan qaçan qadınların çoxunun çəkisi artıb. Qadın fiqurasına daha yaxşı təsir edən isə qırmızı çaxır olub. Pivə və daha sərt içkilər isə çəkinin maksimum artmasına gətirib çıxarıb.

Lakin alimlər hesab edir ki, çaxırdan istifadə edərək ölçünü gözləmək lazımdır. İfrat dərəcədə aludəçilik təkcə çəkiyə deyil, həm də sağlamlığa ziyandır.

# Qışda qadınların başına bunlar gəlir...

**İndiana Universitetinin mütəxəssisləri maraqlı araşdırma edib. Cebhe.info xəbər verir ki, araşdırma göstərib ki, qışda qadınlar daha aqressiv olurlar. Buna səbəb isə günlərin qısalması göstərilir.**



Xamyaklar üzərində aparılan araşdırma göstərib ki, qadınlar hormonal mexanizmi onların aqressivliyini şərtləndirən əsas amildir. Kişi orqanizmində isə aqressiya başqa mexanizmlə idarə olunur.

Bioloq Nikki Rendonun fikrincə, bu araşdırma gələcək tədqiqatlar üçün baza rolunu oynayacaq. Belə ki, qadın orqanizmində sutkanın qaranlıq zamanında melatonin artır, sutkanın işıqlı zamanlarında isə azalır. Bu isə qadınların davranışını şərtləndirir.

"Cinsi hormonlar qadın və kişilərdə aqressiya üzərində nəzarətin təmin edilməsində mühüm rol oynayır",- deyə bioloq vurğulayıb.

# Aqressiv kişilər çox xəstələnir

**Alimlər iddia edirlər ki, əsəbi, yorğun və aqressiv kişilər ürək-damar xəstəliklərinə daha çox tutula bilərlər. Güclü emosional-psixi gərginlik müxtəlif xəstəliklərin yaranmasına səbəb ola bilir.**

10 il ətraf mühitə nifrət və depressiya kişilərdə immun sistemə ziyan vurur ki, bu da onlarda ürək xəstəliklərinə səbəb olur. Dyuk adına ABŞ Universitetinin alimləri aşkarlayıblar ki, mənfi emosiyalar ikinci qrup şəkər xəstəliyinin yaranmasına səbəb ola bilər. Hirsli, əsəbi və aqressiv kişilərdə C3 zülalın miqdarı artır ki, bu da xroniki immun sisteminin zəifliyinə gətirib çıxarda bilir.

Tibb işçiləri Vyetnam müharibəsində iştirak etmiş 313 veteranın 10 illik sağlamlığını müşahidə ediblər. Qan nümunələrinə baxılmış, psixoloji testlər aparılıb, C3 və C4 zülalların miqdarı müşahidə olunmuşdur. Daha çox nifrət və depressiya hissləri keçirən kişilərdə C3 zülalı 7,1% artırmış. Bu artım öz növbəsində bu kişilərdə ürək sağlamlığına mənfi təsir göstərib.





# Kişilər öz səhhətlərinə qarşı etinasızdır

**Araşdırmalara əsasən evli kişilər subay kişilərlə müqayisədə daha çox yaşayırlar. Britaniyalı alimlər bunun bir neçə səbəbini müəyyən ediblər. Adətən kişilər öz səhhətlərinə qarşı etinasızdılar. Qadınlar isə əksinə, öz orqanizmlərinə qarşı daha diqqətlidirlər. Bu səbəbdən də məhz qadınlar öz həyat yoldaşlarının səhhətində bir problem gördükdə onları həkimin qəbuluna yazılmağa məcbur edirlər.**

Bundan əlavə, qadınlar həyat yoldaşlarını vaxtlı-vaxtında dərman içməyə və həkimlərin göstərişlərinə əməl etməyə də məcbur edirlər.

İnfarkt və ya insult olmuş ailəli kişilər xəstəxanaya daha tez çatdırılırlar. Bu da onların həyat yoldaşlarının operativliyinə görə baş verir.




**QOÇ** - Yaxşı olar ki, əsas enerjinizi fəaliyyətə yönəldəsiniz. Hansısa sövdələşmə və maliyyə planları isə perspektivli deyil. Risk etməkdənsə həyatın axarına qoşulmağınız yaxşıdır.

**BUĞA** - Fəaliyyətlə bağlı müəyyən irəliləyişlərə nail olacağınızdan xəbər verən ulduzlar hər an təmkin göstərməyinizi tələb edir. Çünki hər şeyə birdən-birə nail olmaq mümkün deyil.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə gərgin gündür. Az qala ətrafınızda olan hər kəs əsəblərinizi tarıma çəkməyə çalışacaq. Odur ki, mənasız söhbətlərə aludə olmamağınız məsləhətdir.

**XƏRÇƏNG** - İş barədə düşünməyə dəyməz. Çünki ulduzlar sizə istirahət, əyləncə və səfərlər tövsiyə edir. Qətiyyən "kef-damaq harama yaraşır?" deməyin. Axı dərdlə sevinc əkiz yaranıb.

**ŞİR** - Qarşılıqlı münasibətlər zəminində mübahisələriniz gözlənilir. Bu istiqamətdə daha çox iş yoldaşlarınız və qonşularınızla soyuqluq mümkündür. Xırdaçılığa meyl etməyin.

**QIZ** - Səhhətlə bağlı problemləriniz bu gündən etibarən qaydasına düşəcək. Bununla da aktivliyiniz artacaq. Saat 15-19 arası perspektivli danışıqların və digər sürprizlərin iştirakçısı olacaqsınız.

**TƏRƏZİ** - Nə qədər qaynar olsa da, bu təqvim öz çalarlarına görə iç dünyanızda böyük dəyişiklik edə bilər. Odur ki, savab işlərinizin sayını artırmalısınız. Saat 20-dən sonra mütləq evdə olun.

**ƏQRƏB** - Əsas işinizi pul məsələləri üzərində qurun. Çünki bütün astroloji göstəricilər yalnız maliyyə cəhətdən uğurlarınızın artacağını bəyan edir. Heç kimə borc verməyin.

**OXATAN** - Bütün göstəricilər maraqlı insanlarla rastlaşacağınızdan, uğurlu məqamlar yaşayacağınızdan xəbər verir. Fəaliyyətdə və işgüzar sövdələşmələrdə isə hansısa yenilik olmayacaq. Səfərə çıxmayın.

**OĞLAQ** - Qərarlarınızda ədalətlilik prinsiplərinə söykənsəniz, mövcud problemləriniz həll oluna bilər. Heç olmasa bu gün hamı haqqında yaxşı düşünün ki, hər şey müsbət sonuclansın.

**SUTÖKƏN** - Vəzifəcə sizdən yüksək olan şəxslər haqqında mənfi fikrə gəlməyiniz işlərinizin gedişində qüsurlar yaradır. Naşükür olmayın. Unutmayın ki, həmişə "su axıb öz çuxurunu tapar".

**BALIQLAR** - Saat 12-17 arası qalmaqallı situasiyalara cəlb oluna bilərsiniz. Bu, ilk növbədə pulla bağlı ola bilər. Göy qübbəsi əmin olmadığınız işlərə görə vəd verməyinizin əleyhinədir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Trampa qarşı 130 lüt qadın



**Amerikanın Ohayo ştatındakı Klivlend şəhərində 130 lüt qadın ilginc etiraz aksiyası keçirib. Onlar fotoqraf Spenser Tunikin fotoobyektivinin qarşısında dayanaraq prezidentliyə namizəd Donald Trampa etiraz ediblər. Bu barədə lenta.ru saytı xəbər verir. Qadınlar lüt soyunaraq əllərindəki güzgülərlə fotoqrafa poza veriblər. Aksiya şəxsi mülklərdən birinin həyətində baş verib. Çünki Klivlenddə lüt aksiya keçirmək qadağandır. Amma sözügedən aksiyanın keçirildiyi məkanı Respublikaçılar Pariyasının öz qurultayını keçirdiyi məkanı görür. Məlumdur ki, sözügedən toplantı 18 iyulda başlanıb və dörd gün davam edir.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750